

Milli azadlıqdan şirin nemət yoxdur!



# İdeologiya, iqtisadiyyat və milli ideyalar - bunlar hamısı birlikdə Azərbaycanı bizim layiq olduğumuz yerə gətirib çıxardı

Bax səh. 2-3

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
13 fevral 2025-ci il, cümə axşamı
№ 026 (6854)
Qiyməti 60 qəpik

# Əminəm ki, bu səfər ölkələrimiz arasında sıx dostluq münasibətlərində yeni səhifə açacaq



Bax səh. 2

# Konstitusiya quruluşunun və suverenliyin tam təmin edilməsi tarixi nailiyyətdir

Bax səh. 4

## Yeni əməkdaşlıq perspektivi...

Azərbaycan dövlətinin həyata keçirdiyi çoxvektorlu xarici siyasət kursu ölkəmizin dünya miqyasında siyasi-iqtisadi nüfuzunun gündən-günə artmasında əsaslı şərt kimi çıxış edir. Əldə olunan yüksək iqtisadi göstəricilər, diplomatik uğurlar, regionda formalaşdırılan və təhlükəsizliyə istiqamətlənən yeni siyasi reallıqlar, eyni zamanda, fərqli coğrafyaların enerji təminatında oynadığı əhəmiyyətli rol Azərbaycana olan qlobal marağın artmasını şərtləndirib. Eyni zamanda, Azərbaycanın yeni mərhələdə formalaşan iqtisadi-siyasi, ticari münasibətlər sisteminə verdiyi töhfələr, ən kritik məqamlarda irəli sürdüyü təşəbbüslər beynəlxalq aləmdə yüksək dəyərləndirilir. Bu isə nəticədə ölkəmizə olan müsbət maraqları artırır. Burada əsas məqamlardan biri də Azərbaycanın beynəlxalq münasibətlər sistemində bərabərhüquqlu əməkdaşlığı təbliğ etməsidir. Beləliklə, Azərbaycanın dünyanın demək olar ki, əksər coğrafi məkanları ilə fəal iqtisadi-ticari əlaqələr formalaşdırır. Nəticə isə göz önündədir - bu gün ABŞ, Aİ, Türkiyə, ərəb-islam dünyası, Mərkəzi Asiya, Uzaq Şərq, Çin, hətta fərqli qitələrin təmsilçiləri Azərbaycanın apardığı uğurlu siyasətin dəstəkçisi, tərəfdaşı kimi çıxış edir, əməkdaşlıq üçün can atırlar.

Afrika qitəsinin şərqində yerləşən Somali İslam Əməkdaşlıq Təşkilatının (İƏT) və Qoşulmama Hərəkatının üzvüdür. Bu müsəlman ölkəsi İƏT və Qoşulmama Hərəkatı çərçivəsində Azərbaycanla qarşılıqlı hörmətə, dəstəyə və həmrəyliyə...

Bax səh. 5

## Bakıda Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyası keçiriləcək

Bax səh. 5

## Qanunlara dəyişiklik edildi...

Bax səh. 8

## Böyük Vedidən köçürüləndə mənim beş yaşım olub...

Bax səh. 7

## Qəzzada münaqişə yenidən alovlana bilər

Bax səh. 6

## Böyük Qayıdış hədəfinə doğru

Vətən müharibəsində işğaldan azad edilmiş ərazilərin bərpası və dayanıqlı şəkildə məskunlaşdırılması postmüharibə dönəmində qarşıda duran əsas məqsədlərimizdən biridir. Bu hədəfə çatmaq üçün adıcıl tədbirlər görülür və müvafiq qurumların koordinasiyalı fəaliyyəti təmin edilir. Bu günlərdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Xankəndi şəhərində Qərargahın növbəti iclası keçirilib.

Müharibə başa çatandan sonra Ermənistan və işğalçı dövlətin havadarları dövriyyəyə məlumatlar buraxırdılar ki, guya Azərbaycanın işğaldan azad olunmuş ərazilərin bərpasına gücü çatmayacaq və yaxud buna onilliklər lazım gələcək. Bəli, işğal dövründə erməni vandalları bu ərazilərdə hər şeyi dağıtmiş və talamışdılar. Ancaq dağıntıların miqyasının böyük olmasına baxmayaraq, qalib Azərbaycan bəhs olunan ərazilərin bərpasına müharibə başa çatandan dərhal sonra başladı. Müharibədən çıxan ölkənin vaxt itirmədən öz gücünə tamamilə dağıdılmış ərazilərin bərpasına başlaması dünya tarixində bir ilkdir.

Yeni strateji mərhələdə işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın təmin edilməsi ölkəmizin beş...

Bax səh. 4




Bax səh. 6

# Paşinyanın Vaşinqton rəzaləti



Bax səh. 6

# Somali Prezidenti Hasan Şeyx Mahmud Azərbaycana səfər edib

## Əminəm ki, bu səfər ölkələrimiz arasında sıx dostluq münasibətlərində yeni səhifə açacaq

Azərbaycan Respublikasında rəsmi səfərdə olan Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmudun fevralın 12-də rəsmi qarşılanma mərasimi olub. Prezident İlham Əliyev Hasan Şeyx Mahmudu qarşılayılb. Fəxri qarovul dəstəsinin rəisi Somali Prezidentinə raport verib. Somali Federativ Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirilib.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Somali Prezidenti Hasan Şeyx Mahmudun qarşısından keçib. Dövlət başçıları rəsmi foto çəkdiriblər. Sonra dövlət başçılarının təkbətək görüşü olub.

Fevralın 12-də Prezident İlham Əliyevin və Hasan Şeyx Mahmudun iştirakı ilə Azərbaycan Respublikası ilə Somali Federativ Respublikası arasında imzalanmış sənədlərin mübadiləsi mərasimi olub. "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Somali Federativ Respublikasının Prezidentinin Ofisi arasında dövlət xidmətlərinin göstərilməsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nu Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev və Somali Prezident Aparatının rəhbəri Abdihakim Mohamed Yusuf mübadilə ediblər. "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Somali Federativ Respublikasının Energetika və Su Ehtiyatları Nazirliyi arasında yaşıl enerji sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Somalinin energetika və su resursları naziri Abdullahi Bidham Varsame mübadilə ediblər.

"Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Somali Federativ Respublikasının Təhsil, Mədəniyyət və Ali Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Somalinin xarici işlər naziri Əhməd Moalim Fiqi mübadilə ediblər.

"Azərbaycan Respublikası Hökuməti ilə Somali Federativ Respublikası Hökuməti arasında müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın müdafiə naziri Zakir Həsənov və Somalinin müdafiə naziri Əbdülkadir Mohamed Nur mübadilə ediblər.

Prezident İlham Əliyev və Hasan Şeyx Mahmud lanç əsnasında geniş tərkibdə görüşdən sonra mətbuata bəyanatla çıxış ediblər. Azərbaycan Prezidenti bildirib ki, bu, tarixi səfərdir və ölkələrimiz arasında ikitərəfli münasibətlərin tarixində ilkdir. "Əminəm ki, səfər ölkələrimiz arasında sıx dostluq münasibətlərində yeni səhifə açacaq. Bu gün Prezidentlə görüşümüz zamanı biz qarşılıqlı maraq doğuran kifayət qədər böyük sayda məsələləri artıq müzakirə etdik. Bu gün müzakirələrimizi nümayəndə heyəti üzvlərinin iştirakı ilə davam etdirəcəyik. Bu gün imzalanmış sənədlər ikitərəfli əlaqələrimizi çox sahələrdə inkişaf etdirməkdə qarşılıqlı iradəmizi aydın şəkildə nümayiş etdirir. Əminəm ki, hazırda Bakıda imzalanmış bütün razılaşmalar həyata keçiriləcək və münasibətlərimizi daha yüksək səviyyəyə qaldıracaq".

Prezident İlham Əliyev qeyd edib ki, biz regionlarımızda geosiyasi vəziyyəti, ölkələrimizin üzləşdiyi çağırışları geniş şəkildə müzakirə etdik, ölkələrimizin ərazi bütövlüyünə və suverenliyinə qarşılıqlı dəstəyimizi, eləcə də terrorçuluğa və ekstremizmə qarşı mübarizədə ortaq mövqeyimizi bir daha vurğuladıq. "Əlbəttə, hər bir ölkə üçün siyasi sabitlik inkişafı təmin edən ilkin şərtdir. Mən 1990-cı illərdən və bu əsrin əvvəlindən tutmuş beynəlxalq səviyyədə tanınmış ərazilərimizin erməni işğalından azad edilməsinə qədər Azərbaycanın üzləşdiyi ağır dövr barədə cənab Prezidentə məlumat verdim. Mən, həmçinin Azərbaycana sərmayələrin cəlb edilməsində və müsbət işgüzar mühitin yaradılmasında təcrübəmizi bölüşdüm. Müzakirə etdiyimiz və edəcəyimiz sahələr sırasında, düşünürəm ki, ən vaciblərindən biri təhsil sahəsidir. Bu gün həmin sahədə artıq ilkin nailiyyətlərimiz var. Somalidən bir sıra tələbə Azərbaycanda Heydər Əliyev adına təqaüd əsasında təhsil alır. Bu gün imzalanmış sənəd onların sayını artırmaq imkanını yaradacaq. İlkin mərhələdə on tələbə, sonra isə onların sayı daha çox ola bilər. Bir sözlə, onların universitetlərimizdə müasir təhsil proqramlarına çıxış əldə etmək imkanı olacaq və belə fürsət Somalinin iqtisadi inkişafına fayda verəcək". - deyə dövlət başçısı bildirib.





Prezident İlham Əliyev bildirib ki, biz, həmçinin Somalidə sərmayə imkanlarını müzakirə etdik. "Cənab Prezidentin səfərindən əvvəl Azərbaycanın böyük nümayəndə heyəti bir həftə öncə Somaliyə səfər etmiş, əsasən, səfərin hazırlanması və eyni zamanda, gələcəkdə güclü iqtisadi, siyasi və mədəni əlaqələrin qurulması üzərində çalışmışdır. Düşünürəm ki, həmin proses davam etməlidir. Düşünürəm ki, Prezidentin rəsmi səfəri nəticəsində biz digər heyəti konkret hədəf və məqsədlərlə sərmayə sahələrini müəyyən etmək, eləcə də Azərbaycanın sərmayələri qəbul oluna biləcək və faydalı olacaq konkret layihələri qeyd etmək üçün Somaliyə ezam etməliyik".

Prezident İlham Əliyev deyib ki, Azərbaycan müdafiə avadanlığının əksər hissəsini istehsal edərək, güclü müdafiə sənayesi potensialını yaradıb. "Həmin avadanlıq həm bizə lazımdır, həm də müasir müdafiə avadanlığına malik olan 10-a yaxın ölkənin mühüm ixracatçısına çevrilmək imkanıdır. Burada təlimlər də var, çünki İkinci Qarabağ müharibəsi və sonradan antiterror əməliyyatı hərbi qulluqçularımızın yüksək peşəkarlığını nümayiş etdirdi. Onlar altı və ya yeddi müdafiə xəttinə, müxtəlif müdafiə istehkam infrastrukturuna baxmayaraq, təxminən otuz il işğal altında olan ərazimizi çox mürəkkəb coğrafi relyef şəraitində azad edərək, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini qısa müddət ərzində tam bərpa edə bildilər. Bir sözlə, düşünürəm ki, müdafiə sahəsində əməkdaşlıq, təlimlər və potensial qaydada müdafiə avadanlığının birgə istehsalı, Azərbaycandan Somaliyə onun təchizatı əməkdaşlığımızın mühüm sahələrindən biri olmalıdır".

Azərbaycan Prezidenti vurğulayıb ki, imzalanmış razılaşmalardan biri dövlət xidmətləri ilə bağlı sahəni əhatə edir. "Azərbaycanda artıq uğurla işləyən sistem - ASAN dövlət xidmətləri sistemi bir çox beynəlxalq mükafatlara layiq görülüb. Ən mühüm mükafat isə Azərbaycan xalqının verdiyi qiymətdir. Çünki Azərbaycanda ASAN xidmətlərin bəyənilmə reytinqi 100 faizə yaxındır. Bu, həqiqətən göstərir ki, həmin xidmət insanların həyatını daha da asanlaşdırır. Bilirəm ki, Prezidentin proqramında həmin xidmət mərkəzlərindən birinə səfər var və əgər siz qərar qəbul etsəniz, bəyənsəniz, biz sizin ölkədə oxşar sistemi qura bilərik. Təbii ki, tərəfdaşlığımızın mühüm sahəsi beynəlxalq təsisatlarda qarşılıqlı dəstəkdir. Bilirəm ki, xarici işlər nazirlərimiz çox tədbirlərdə görüşərək həmin məsələləri müzakirə ediblər. Biz BMT, İslam Əməkdaşlığı Təşkilatı və digər beynəlxalq qurumlarda bir-birimizə dəstəyi birmənalı olaraq davam etdirəcəyik". - deyə Azərbaycan prezidenti bildirib.

Sonra Hasan Şeyx Mahmud bəyanatla çıxış edərək bildirib ki, münasibətlərimizin tarixində ilk dəfə Azərbaycana səfər edən ilk Somali Prezidentidir. "Qardaş Azərbaycanın paytaxtı Bakıda olmaqdan, hörmətli qardaşım və dostum Prezident İlham Əliyevlə səmərəli müzakirələr aparmaqdan böyük şərəf və qürur hissi duyuram. Bugünkü görüşümüz çox məhsuldar keçib və bu, Somali-Azərbaycan münasibətlərində yeni eranın başlanğıcı deməkdir. Bu səfər, sadəcə, diplomatik əməkdaşlıq deyil. Bu, həqiqətən iki qardaş ölkələrimiz arasında tərəfdaşlıq üzrə səmərəli və strateji müttəfiqliyin başlanğıcı deməkdir. Somali və Azərbaycanın inkişaf, təhlükəsizlik və tərəqqi ilə bağlı baxışları üst-üstə düşür. Bu gün biz əsasən tərəflər arasında daha sıx əməkdaşlığın dərinləşdirilməsinə sadiqliyimizi bildirdik. Mən, həmçinin Azərbaycan xalqını öz suverenliyini və ərazi bütövlüyünü qoruduğuna görə təqdir etmək istərdim".

Somali Prezidenti qeyd edib ki, son üç onillikdə ölkələrimiz arasında bir çox oxşarlıqlarımız mövcuddur. "Xüsusilə 1990-cı illərdə Azərbaycan müəyyən çətinliklərlə üzləşəndə, Somali də belə çətinliklərlə üzləşib. Xoşbəxtlikdən, Əlhəmdülillah, Azərbaycan xalqı dünyanın bu hissəsində sabit və firavan bir ölkə kimi qalib gəlməyə müvəffəq olub. Biz Azərbaycanın qazandığı təcrübəni bölüşmək istərdik və Sizin praktik təcrübənizi öyrənməyə hazırıq. Cənab Prezident, qeyd etdiyiniz bütün əməkdaşlıq sahələri hər ikimiz və xüsusilə də Somali üçün çox faydalıdır. Somali çətin dövrdən çox parlaq gələcəyə keçid edən ölkədir. Somali zəngin resursları və böyük potensialı olan ölkədir. Lakin şərait inkişaf etməyə imkan verməyib. Azərbaycan kimi yaxşı tərəfdaşlarla ölkəmizin potensialı üzə çıxacaq və o, proqnozlaşdırılabilən olacaq. Azərbaycandan öyrənə biləcəyimiz digər əsas sahələr proqnozlaşdırılabilən siyasət və proqnozlaşdırılabilən inkişaf siyasətidir". - deyə Hasan Şeyx Mahmud vurğulayıb.

Prezident Hasan Şeyx Mahmud qeyd edib ki, Azərbaycan Somaliyə Afrikanın inkişaf edən bazarlarına, xüsusilə də ticarət və logistika sahələrində qapı kimi baxa bilər. "Somalinin Hind okeanında və Qırmızı dənizdə strateji olaraq yerləşməsi ölkələrimiz üçün iqtisadi faydaların paylaşıla və araşdırıla biləcəyi qiymətli strateji ərazidir. Cənab Prezident, bu gün, sadəcə, başlanğıcdır. Somali və Azərbaycan təkcə iqtisadi artım və təhlükəsizlik üçün baxışı bölüşmür. Biz xalqlarımız üçün daha yaxşı gələcək yaratmaq naminə möhkəmlik, qətiyyət və ambisiya ruhunu bölüşürük. Somalinin texniki heyətləri Azərbaycana səfər etməyə və Azərbaycan hökumətinə, Azərbaycanın özəl sektoruna Somalidə mövcud olan və yeni yaranan imkanları təqdim etməyə hazırdır".

### Azərbaycan Prezidenti yanında Agentlik yaradılıb

Prezident İlham Əliyevin imzaladığı Fərmana əsasən, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin yerində Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi yaradılıb. Dövlət başçısının sərəncamı ilə Elnur Şəmistan oğlu Bağırov Agentliyin sədri təyin edilib.

# İdeologiya, iqtisadiyyat və milli ideyalar - bunlar hamısı birlikdə Azərbaycanı bizim layiq olduğumuz yerə gətirib çıxardı



## Prezident İlham Əliyev Davosda Çinin CGTN telekanalına müsahibə verib

**Ölkəmiz üçün son illərin ən mühüm nailiyyəti ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası oldu**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda Çinin CGTN (China Global Television Network) telekanalına müsahibə verib. Dövlətimizin başçısının müsahibəsi fevralın 11-də bu televiziya kanalında yayımlanıb. AZƏRTAC həmin müsahibənin geniş variantını təqdim edir.

**Aparıcı: Cənab Prezident, Sizinlə yenidən Davosda görüşmək böyük şərəfdir.**

Prezident İlham Əliyev: Sizi görməyə çox şadam. Mən əvvəlki görüşümüzü xatırlayıram. Sizin auditoriya ilə söhbət etmək imkanına görə sizə təşəkkür edirəm.

**Aparıcı: Siz sağ olun, Cənab Prezident. Çoxqütblü dünyada biz öz arzularımızı və planlarımızı necə görürük? Əminəm ki, daimi dəyişikliklər baş verir, ancaq təməl aspektlər də var. Siz bu məsələləri necə görürsünüz?**

Prezident İlham Əliyev: Ölkəmiz üçün son illərin ən mühüm nailiyyəti ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası oldu. Biz bunu beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanaraq, BMT Nizamnaməsinə və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq həyata keçirdik. Demək olar ki, 30 il ərzində bu, bizim milli ideyamız idi və biz hədəfimizə nail olmaq, ədaləti bərpa etmək üçün bütün səylərimizi səfərbər etdik. Əfsuslar olsun ki, beynəlxalq hüququn normaları işləmədi və beynəlxalq təşkilatlar yardımçı olmadılar. Çünki çoxsaylı beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qətnamələr, sadəcə, kağız üzərində qalmışdı. Biz bunu özümüz həll etməli, ədaləti özümüz bərpa etməli olduq. Bu, bir daha onu nümayiş etdirir ki, indi dünyanın həqiqətən də beynəlxalq öhdəliklərə tam hörmət edilməsinə ehtiyacı var.

**Aparıcı: Aydındır. Cənab Prezident, Sizcə çoxqütblü dünyada Azərbaycanın yeri haradadır?**

Prezident İlham Əliyev: Biz ən başdan, müstəqilliyimiz bərpa ediləndən bəri olduğumuz yerdəyik. Biz güclü iqtisadiyyat, yeri gəlmişkən, özünü təmin edən iqtisadiyyat qurduq. Ümumi daxili məhsula (ÜDM) nisbətdə xarici borcun səviyyəsi çox aşağıdır, cəmi 6,9 faizdir. Buna əsaslanaraq biz regionda bağlantılar yaradan genişmiqyaslı layihələr həyata keçirmişik və aid olduğumuz Cənubi Qafqaz və Xəzər regionunda etibarlı mövqe tutmuşuq. Əlbəttə ki, milli maraqlarımızı, həyat tərzimizi və müstəqil siyasətimizi qəti şəkildə müdafiə etmişik və çoxlu uğur qazanmışıq. Mən deyərdim ki, dünya xəritəsində nisbətən yeni olan Azərbaycanın öz milli maraqlarını müdafiə edən və bütün dünyada yaxşı əlaqələr quran ölkə kimi nümunəsi onu göstərir ki, cəmiyyətdə sabitlik, birlik varsa, siz öz maraqlarınızı müdafiə edə bilərsiniz.

### Bizim hədəfimiz Azərbaycanın dünyanın siyasi və iqtisadi xəritəsində öz yerini tutmasından ibarət idi

**Aparıcı: Cənab Prezident, Azərbaycanın hüdudlarından kənara baxdıqda ölkənizi çox proaktiv beynəlxalq oyunçu kimi görmək mümkündür. Məsələn, siz Ümumdünya Ticarət Təşkilatına üzv olmaq istəyirsiniz. Yeri gəlmişkən, bununla bağlı son vaxtlar Çinlə müzakirələr aparırsınız. Siz, həmçinin qlobal iqlim sammitinə ev sahibliyi etdiniz. Bu, nəhəng bir tədbir idi və bu siyahını davam etdirmək olar. Azərbaycanın proaktiv yanaşmasını görmək olar. Əminəm ki, cənab Prezident, Sizin planlarınız var və Siz irəliləməklə bağlı ətraflı düşünürsünüz.**

Prezident İlham Əliyev: Sözsüz ki, bizim hədəfimiz Azərbaycanın dünyanın siyasi və iqtisadi xəritəsində öz yerini tutmasından ibarət idi. Təxminən 200 ölkəni bir araya gətirən İqlim konfransına ev sahibliyi etmək böyük çağırış, böyük məsuliyyət, eyni zamanda, böyük nailiyyət idi. Azərbaycanın şaxələnmiş xarici siyasətinin daha bir nümayişi ondan ibarət idi ki, bizim namizədliyimiz bütün iştirakçı dövlətlər və qurumlar tərəfindən dəstəkləndi.

**Aparıcı: Təbriklər.**

Prezident İlham Əliyev: Demək olar ki, təqribən 200 ölkə və beynəlxalq təşkilat Azərbaycanın namizədliyini yekdilliklə dəstəklədi. Bundan əvvəl biz 120 ölkəni birləşdirən, BMT Baş Assambleyasından sonra ikinci böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına 4 il ərzində uğurla sədrlik etdik. Bu onu göstərir ki, bizim dostluğa, əməkdaşlığa, heç bir ölkənin daxili işlərinə qarışmamağa əsaslanan siyasətimiz həqiqətən də beynəlxalq arenada dəstəklənir. Ona görə də biz belə qlobal, beynəlxalq bir tədbirə ev sahibliyi edə bilərik.

**Aparıcı: Bir çoxları Ümumdünya Ticarət Təşkilatına daxil olmaqla bağlı müzakirələrinizi diqqətlə izləyir. Bu, böyük bir prosesdir, elə deyilmi?**

Prezident İlham Əliyev: Bəli.

davamı 3-cü səhifədə

# İdeologiya, iqtisadiyyat və milli ideyalar - bunlar hamısı birlikdə Azərbaycanı bizim layiq olduğumuz yerə gətirib çıxardı

əvvəli 2-ci səhifədə

**Aparıcı: İndi elə bir vaxt gəlib çatıb ki, proteksionizm daha da intensivləşib. Siz, həmçinin bəzi iqtisadiyyatların tarif alətindən istifadə etdiyinin, hətta bəzən digər iqtisadiyyatlara qarşı vahid tariflərin tətbiqinin şahidi olursunuz, eyni zamanda, qlobal təchizat zənciri müəyyən mənada pozulur. Nə üçün məhz indi Azərbaycan Ümumdünya Ticarət Təşkilatına daxil olmağın bu qədər vacib olduğunu düşünür?**

Prezident İlham Əliyev: Əslində, bunun cavabı elə sizin sualınızdadır. Biz hələ də Ümumdünya Ticarət Təşkilatının üzvü deyilik, baxmayaraq, uzun illərdir, deyərdim, bir neçə onilliklərdir ki, danışıqların aktiv mərhələsindəyik. Bu prosesin məntiqi yekunlaşmamasının səbəbi sırf sizin dediklərinizdir. Proteksionizm, ikili standartlar, tariflər - bütün bunlar Ümumdünya Ticarət Təşkilatının təməl dəyərlərinə ziddir. Biz görürük ki, ölkələr öz bazarlarını qorumaq üçün tarifləri tətbiq edir, proteksionizm üsullarından istifadə edirlər və bu da Ümumdünya Ticarət Təşkilatının prinsiplərinə tamamilə ziddir.

Buna görə də biz danışıqlar prosesindəyik. Lakin, eyni zamanda, biz üstünlükləri və zəif tərəfləri ciddi qiymətləndiririk. Bizi narahat edən məqamlardan biri bizim indi müzakirə etdiyimiz mövzudur. Digəri isə ondan ibarətdir ki, bizim sənayemiz və ixrac potensialımız bunun üçün yaxşı hazır olmalıdır. Çünki bu vaxtadək bizim ixracın əsas hissəsi qazıntı enerji növləridir. Bunun üçün Ümumdünya Ticarət Təşkilatına üzv olmaq lazım deyil. Ölkə əmtəələrini bazarda satır.

Beləliklə, bazarlarını bütün dünyaya açmaqla Ümumdünya Ticarət Təşkilatına üzv ölkələr rəqabəti artıracaq. Lakin, eyni zamanda, onlar yerli istehsalçıların maraqlarına ziyan vura bilərlər. Beləliklə, biz bu prosesi balanslaşdırırıq və gələcək danışıqlar prosesində maksimum müsbət şərtləri əldə etməyə çalışırıq. Mən artıq demişəm ki, Azərbaycanın iqtisadiyyatı özünü təmin edir. Bizim ÜDM-ə münasibətdə ən aşağı səviyyəli xarici borcumuz var. Bizim konvertasiya oluna bilən valyuta ehtiyatlarımız xarici borcumuzu 14 dəfə üstələyir. Beləliklə, hər hansı əlavə bir imtiyaz lazım deyil. Biz malik olduqlarımızı itirmək istəmirik. Lakin, eyni zamanda, təşkilata qoşulma ilə bağlı bütün təkliflərimiz, - istər ikitərəfli əlaqələr istiqamətində ölkələrlə danışıqlar prosesində, istərsə də ümumilikdə təşkilatla bağlı, - qəbul olunarsa, hesab edirəm ki, proses daha da rəvan gedər.

## Strateji tərəfdaşlıq çox yüksəksəviyyəli qarşılıqlı etimad, əməkdaşlıq deməkdir

**Aparıcı: Mənim bildiyimə görə, son xəbərlərə əsasən Azərbaycanın danışıqlar komandası Çinin danışıqlar komandası ilə təmasdadır, o cümlədən yanvar ayında. Mən hər iki tərəfdən müsbət reaksiya görürəm.**

Prezident İlham Əliyev: Bəli, bu, həqiqətdir. Çünki bildiyiniz kimi, ötən il Çin və Azərbaycan rəsmi olaraq strateji tərəfdaş oldular. Ötən yay mənim Çinin Sədri ilə görüşümdən sonra strateji tərəfdaşlıq üzrə müvafiq Bəyannamə qəbul edildi və bu, bizim ikitərəfli əlaqələrdə çox mühüm siyasi addımdır. Strateji tərəfdaşlıq çox yüksəksəviyyəli qarşılıqlı etimad, əməkdaşlıq deməkdir və biz təkcə Ümumdünya Ticarət Təşkilatına deyil, müxtəlif beynəlxalq təşkilatlara qoşulma məsələsi daxil olmaqla Çin ilə tərəfdaşlığımızın genişləndirilməsini arzulayırıq.

**Aparıcı: Sizinlə artıq növbəti suala gəldik, cənab Prezident. Biz Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatında müşahidəçi qismində olduğunu görürük. Bu arada Siz BRICS-in üzvü olmaq üçün fəal addımlar atırsınız. Beləliklə, təhlükəsizlik, ticarət, iqtisadi inkişaf və hər kəs üçün uduşlu bir vəziyyət nöqteyi-nəzərindən Qlobal Cənubla bağlı olan müzakirələri necə görürsünüz?**

Prezident İlham Əliyev: Əslində, Şanxay Əməkdaşlıq Təşkilatına gəldikdə, ölkəmizin statusu müşahidəçi deyil, dialoq üzrə tərəfdaşdır. Bu, həmin beynəlxalq təşkilatla daha da yaxın olmaq üçün güclü qarşılıqlı iradənin nümayişidir. Əlbəttə ki, beynəlxalq təşkilatlarla işləyəndə və ya onlarla daha yaxın olmaq istəyəndə siz təşkilatın tərkibinə, üzv ölkələrinə nəzər salırsınız. Şanxay Əməkdaşlıq Təşkilatının və BRICS-in bütün üzv dövlətlərinin Azərbaycanla çox yaxşı və dost münasibətləri var. Bundan başqa, bizim coğrafi mövqeyimiz, Cənubi Qafqaz və Xəzər regionunda vahid məqsədlərə töhfəmiz nöqteyi-nəzərindən əhəmiyyətli olacaq. Əlbəttə ki, Çin və Mərkəzi Asiya ölkələri ilə üzərində fəal iş apardığımız məsələlər, həmçinin bağlılıq layihələridir. Çünki Azərbaycan artıq müasir nəqliyyat infrastrukturu ilə Şərqdən Qərbə gedən yol üzərində yerləşir. Beləliklə, biz praktiki nəticələr nöqteyi-nəzərindən çoxlu töhfə verə bilərik.

Əlbəttə ki, istənilən təşkilata qoşulmaq siyasi addımdır, lakin həmin iqtisadiyyat ölkələri daha da birləşdirən praktiki infrastruktur layihələri ilə dəstəklənməlidir. Qlobal Cənubun bir hissəsi olaraq biz Qlobal Cənubun maraqlarını müdafiə etmişik və yeri gəlmişkən, COP29-a qayıdaraq bizim ideyalarımızdan biri Qlobal Cənubla Qlobal Şimal arasında daha möhkəm körpülər qurmaq idi. Çünki COP29-a ev sahibliyi edən ölkə kimi biz gördük ki, iqlim məsələlərinə gəldikdə, hər iki tərəf müəyyən səviyyədə bir-birinə etibar etmir və söhbət təkcə iqlimdən getmir.

**Aparıcı: Bundan əlavə, boşluq xeyli böyükdür.**

Prezident İlham Əliyev: Elədir.

## Azərbaycanın regional sülhə verdiyi töhfə artıq qlobal, beynəlxalq aktorlar tərəfindən yüksək qiymətləndirilir

**Aparıcı: İndiyədək daha nələri müşahidə etmisiniz?**

Prezident İlham Əliyev: Əslində, biz iqlim dəyişikliyi ilə bağlı məsələlərlə dərindən məşğul olmağa başlayanda iqlim dəyişikliyi səbəbindən ekzistensial təhlükə ilə üzləşən ölkələrdə yüksək dərəcədə narazılığın olduğunu gördük. Biz hamımız bundan əziyyət çəkirik, o cümlədən Azərbaycan. Lakin elə ölkələr var ki, - xüsusilə kiçik ada dövlətləri, - onların mövcudluğuna təhlükə var. Bəzən onların məsələsi gündəliyə daxil olmur, biz isə bunu etdik. Bakıda keçirilən COP29-da ən mühüm tədbirlərdən biri inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Zirvə görüşü idi. Orada Azərbaycan bu ölkələrə əməli dəstək göstərmək üçün çox iddialı gündəlik irəli sürdü. Aydın məsələdir ki, böyük aktorların birgə yanaşması olmadan həmin ölkələri və iqlim məsələləri ilə məşğul olmaq üçün maddi ehtiyatları olmayan ölkələri dəstəkləmək çətin olacaq. Düşünürəm ki, üzərinə bu yükü götürən ölkələrin məsuliyyəti daha çox iş görməkdir. Qlobal Cənub tamamilə obyektiv olaraq dünyanın ən zəngin ölkələrindən daha çox dəstək gözləyir.

**Aparıcı: Cənab Prezident, Sizin xüsusilə qeyd etdiyiniz kimi, maliyyədə boşluq var idi. Maliyyədəki bu boşluq, xüsusilə inkişaf etmiş iqtisadiyyata malik ölkələr tərəfindən inkişaf etməkdə olan ölkələrə bundan əvvəl verilərək yerinə yetirilməmiş vədlərlə bağlı idi. Lakin görünür ki, dünya daha çox ziddiyyətli olur, daha çox parçalanır. Bunu bəziləri etimad çatışmazlığı da adlandırırlar. Bu keçid dövründə, siyasi etimadın azala biləcəyi bir vaxtda bir Lider ölkəsi üçün necə qərar qəbul edir? Düşünürəm ki, söhbət ciddi təzyiq və ətraflı dəyərlənmədən gedir.**

Prezident İlham Əliyev: Zənnimcə, Azərbaycanın müxtəlif mühitlərdə özünü rahat hiss etməsinin əsas amillərindən biri ondan ibarətdir ki, biz üzərimizə düşənlərlə əlaqədar artıq xeyli iş görmüşük. Biz sabit iqtisadiyyat qurmuşuq, sabit siyasi sistemimiz var, insanların yaşayış səviyyəsini yaxşılaşdıran çoxlu sosial proqramlar həyata keçiririk, yoxsulluq səviyyəsini təxminən 5 faizə endirməyə nail olmuşuq və müxtəlif beynəlxalq aktorlarla güclü tərəfdaşlıq və əlaqələrlə biz müəyyən vasitəçi rolunu oynayırıq.

Mən artıq Çinlə olan strateji tərəfdaşlıq Bəyannaməmizlə bağlı danışdım. Lakin, eyni zamanda, biz Avropa İttifaqının 10 üzvü ilə strateji tərəfdaşlıq bəyannaməsi imzalamışıq. Türkiyə, Özbəkistan və Rusiya ilə müttəfiqlik bəyannaməsi imzalamışıq. Şaxələnmiş bu xarici siyasət istiqaməti, sadəcə, siyasətə deyil, mahiyyətə əsaslanır. Hər bir sahədə bizim əməli nəticələrimiz, əməkdaşlıq proqramlarımız var. Digər ölkələr kimi bizim də xarici siyasətimiz, sadəcə olaraq, daxili siyasətimizin davamıdır. Azərbaycanın təkcə Mərkəzi Asiya, Xəzər və Cənubi Qafqazda deyil, daha geniş coğrafiyada regional sabitliyə, regional sülhə verdiyi töhfə artıq qlobal, beynəlxalq aktorlar tərəfindən yüksək qiymətləndirilir.

Bizim mövqeyimiz ondan ibarətdir ki, əgər hər bir ölkə diqqətini, sadəcə, öz gündəminə yönəltsə, başqa ölkənin işlərinə müdaxilə etməyə çalışmasa, münaqişələr, narazılıqlar, müharibələr olmaz. Bütün dünyada hələ də qeyri-sabit vəziyyətin olmasının və qan tökülməsinin yeganə səbəbi ondan ibarətdir ki, imperialist keçmişi olan ölkələr, sadəcə olaraq, müdaxilə etməyə, dominantlıq etməyə, diktə etməyə davam etmək istəyir və bu, təbii olaraq, müqavimətə gətirib çıxarır.

Biz özümüzü daxili işlərə müdaxilədən qorumağa müvəffəq olduq. Lakin heç də hər bir ölkə bunu etmək üçün potensiala malik deyil. Əgər ölkə iqtisadi cəhətdən asılıdırsa, o zaman sözsüz ki, onun müqavimət göstərmək və öz milli maraqlarını müdafiə etmək üçün daha az imkanı olacaq. İqtisadiyyat hər şeyin əsasını təşkil edir. İdeologiya, iqtisadiyyat və milli ideyalar - bunlar hamısı birlikdə Azərbaycanı bizim layiq olduğumuz yerə gətirib çıxardı.

## Əsas qeyri-müəyyənlik Avropa liderləri arasındadır

**Aparıcı: Cənab Prezident, Siz Dünya İqtisadi Forumunun ilk günündən burada olduğunuza görə, artıq qarşıdakı bir neçə həftə və aylarla bağlı ciddi qeyri-müəyyənliyin və narahatlığın olduğunu hiss edə bilərsiniz. Məsələn, Vaşinqtonda administrasiya dəyişikliyi ilə əlaqədar insanlar onun yürüdəcəyi siyasətin necə ola biləcəyi barədə düşünürlər. Siz bununla əlaqədar qeyri-müəyyənliklərə və idarəçilik üslubuna necə baxırsınız?**

Prezident İlham Əliyev: Mənim müşahidələrimə görə, əsas qeyri-müəyyənlik Avropa liderləri arasındadır. Azərbaycana gəlincə, bizdə heç bir qeyri-müəyyənlik yoxdur. Biz Prezident Trampın ABŞ-a rəhbərlik etdiyi zamanı xatırlayırıq və son 4 ildə Bayden administrasiyasının Azərbaycana ədalətsiz yanaşması səbəbindən əlaqələrimizin tamamilə korlanmasından fərqli olaraq, bizim əlaqələrimiz çox uğurla inkişaf edirdi. Beləliklə, Prezident Trampla birgə işləməklə bağlı əvvəlki təcrübəmiz çox müsbət idi. Biz gözləyirik ki, ABŞ-Azərbaycan münasibətlərində itirilmiş illər hesab etdiyimiz bu 4 il artıq tarixə qovuşacaq və biz yenidən başlayacağıq.

Lakin Avropa liderləri arasında ciddi qeyri-müəyyənlik və deyərdim, ciddi narahatlıq var. Səbəbi isə çox sadədir. Biz hamımız onların bəzilərinin son 4 ildə cənab Tramp prezident olmadığı dövrdə ona necə münasibət göstərdiyini bilirik. Hamımız onların əksəriyyətinin budəfəki prezident seçkilərində kimi dəstəklədiyini bilirik. Əgər biz bunu biliriksə, sözsüz ki, Prezident Tramp bunu daha yaxşı bilir. Artıq mən deyərdim, ilk diskvalifikasiya var. Bu, Kanadanın Baş naziridir. Prezident Trampın onun barəsində dediyi cəmi bir kəlmə kifayət etdi ki, o, istefa versin.

Bu, yalnız müəyyən siyasi proseslər səbəbindən baş vermədi. Bu, ona görə baş verdi ki, bəzi Qərb liderləri Prezident Trampa qarşı çox ədalətsiz idilər və sözsüz ki, onlar narahatdırlar, indi onların buna görə cavabdeh olmasının vaxtı gəlib çatıb. Bu, mənim fikrimdir. Ola bilsin mən yanılıram. Lakin mən ABŞ-da dəyişikliklə bağlı narahat olmaq üçün başqa ciddi səbəb görmürəm. Düşünürəm ki, dünya daha təhlükəsiz ola bilər. Prezident Trampın ilk prezidentliyi dövründə ABŞ heç bir müharibəyə başlamadı. Əgər ABŞ-ın ən azı bir neçə onilliklər ərzində tarixinə nəzər salsaq, bu, nadir bir təcrübə idi. Azərbaycana gəlincə, biz əminik və nikbin fikirdəyik.

**Aparıcı: Siz, sözsüz ki, müşahidəçi kimi Çinlə ABŞ arasında qarşılıqlı əlaqələri necə görürsünüz? Cənab Trampın ABŞ-ın 47-ci prezidenti kimi andiçmə mərasimindən əvvəl Çin və ABŞ prezidentləri telefonla danışdılar. Onlar dünyanın təhlükəsizliyi və inkişafı naminə necə əməkdaşlıq edə biləcəkləri barədə danışdılar. Dünyanın böyük iqtisadiyyatına malik iki ölkəsi arasında qarşılıqlı əlaqələri necə görürsünüz?**

Prezident İlham Əliyev: Bəli, bu, dünya üçün çox yaxşı bir xəbər idi ki, Çin və ABŞ rəhbərləri yenidən təmasdadırlar.

**Aparıcı: Siz onların ikisini də kifayət qədər yaxşı tanıyırsınız?**

Prezident İlham Əliyev: Sədr Sini daha yaxşı tanıyıram, çünki onunla dəfələrlə görüşmüşəm. Prezident Trampla rəsmi görüşüm olmayıb, sadəcə, bir-birimizin əlini sıxmışıq. Bununla belə, bu, dünya, dünya iqtisadiyyatı, sabitlik üçün yaxşı bir işarə, siqnaldır. Çünki Çin və ABŞ dünyanın iki ən böyük iqtisadiyyatına malik aparıcı ölkələrdir. Əlbəttə ki, müxtəlif məsələlərdə onların arasında konsensusun olması, qarşıdurmanın deyil, əməkdaşlığın olması sözsüz ki, bütün ölkələrin xeyrinə olacaq. Ona görə də biz həmin telefon danışığı barədə xəbər aldıqda bundan məmnun olduq. Ümidvarıq ki, bu sıx tərəfdaşlıq prosesi davam edəcək.

**Aparıcı: Xatırlayıram ki, bir neçə il bundan əvvəl, elə Dünya İqtisadi Forumunda mən, Cənab Prezident, Sizin Orta Dəhlizin potensialı barədə ətraflı şəkildə danışdığınız panel sessiyaya moderatorluq etmək şərəfinə nail olmuşdum. Həmin ili xatırlayırsınız, elə deyilmi?**

Prezident İlham Əliyev: Bəli, əlbəttə.

**Aparıcı: Siz region və region hüdudlarından kənar siyasi və biznes liderləri ilə birlikdə idiniz.**

Prezident İlham Əliyev: Bəli.

**Aparıcı: İllər keçdi və bu, baxışdan reallığa çevrilir.**

Prezident İlham Əliyev: Doğrudur.

## Azərbaycanın Orta Dəhlizlə bağlı mövqeyi, sadəcə, tranzit ölkəsi olmaq və tranzitdən ödənişlər almaqdan ibarət deyil

**Aparıcı: Sizinlə yanaşı, bir çox tərəfdaşlarınız, o cümlədən Çin bu yolun əhəmiyyətini daha da artırdı. Orta Dəhlizin əhəmiyyəti Sizcə nədədir? Çin və sözsüz ki, digər tərəfdaşların da iştirakı ilə bu, bir növ regionu canlandırıb. Bu, parçalanmadan narahat olan dünyaya necə alternativ təklif edir?**

Prezident İlham Əliyev: Bəli, bu, sözsüz ki, alternativ təklif edir. Bu, biznes imkanlar təmin edir. Çünki Azərbaycanın Orta Dəhlizlə bağlı mövqeyi, sadəcə, tranzit ölkəsi olmaq və tranzitdən ödənişlər almaqdan ibarət deyil. Bizim hədəfimiz özəl sektora bundan faydalanmağa kömək etmək üçün dəhlizin keçdiyi Azərbaycan ərazisində müəssisələr yaratmaqdır. Əlbəttə ki, sizin istinad etdiyiniz paneldən bəri bu sahədə, o cümlədən Çin-Azərbaycan münasibətlərində bir çox hadisələr baş vermişdir. Artıq qeyd etdiyimiz kimi, biz strateji tərəfdaşıq, lakin, eyni zamanda, Orta Dəhlizin Azərbaycan seqmentinin infrastrukturu təkmilləşdirilmişdir. Hazırda biz görürük ki, bu təkmilləşdirilmiş infrastruktur gələcək 3-5 il üçün kifayət etməyəcək.

**Aparıcı: Bəli, mən görürəm, Sizin həmişə yeni məqsədləriniz var.**

Prezident İlham Əliyev: Bəli, elədir ki, var. Çünki bizim hədəfimiz ticarət limanında 15 milyon ton yükaşırma qabiliyyətinə malik olmaq idi və bu da onilliklər ərzində yetərli olardı. Lakin indi biz ola bilsin ki, növbəti 5-6 ildə 25 milyon ton yük qəbul etməyi gözləyirik. Beləliklə, biz hazırda dəniz ticarət limanımızın və dəmir yolu infrastrukturumuzun genişləndirilməsini maliyyələşdiririk.

Biz Mərkəzi Asiyada bağlantı layihələrinin də əsasən Çin hökuməti tərəfindən maliyyələşdirildiyini bilirik. Xəzər dənizinə digər bir marşrut Azərbaycana gedən digər marşrutdur və biz buna mütləq hazır olmalıyıq. Əminəm ki, Sədr Si Cinpinin “Bir kəmər, bir yol” təşəbbüsü bütün ölkələr üçün əlavə imkanlar yaradacaq. Bir daha söhbət bağlantıdan, biznes imkanından, sabitlik və təhlükəsizlikdən gedir. Çünki biz hamımız bir-birimizdən asılı oluruq. Bizi birləşdirən vacib infrastruktur layihələri var. Bu, ölkələr arasında həm ikitərəfli, həm də çoxtərəfli əlaqələr istiqamətində bir sıra məsələlərin həlli üçün yaxşı bir mühitdir.

**Aparıcı: Çin yaşıl texnologiya sahəsində sürətlə inkişaf edir və əlbəttə ki, öz təcrübəsini dünya ilə bölüşür. Mən onu da anlayıram ki, Sizin çox aktiv yaşıl gündəliyiniz var. Məsələn, Çinlə birlikdə müəyyən elektrik stansiyalarının üzərində iş gedir. Zəngin qazıntı enerji növlərinə malik olan ölkənizin, iqtisadiyyatınızın yaşıl enerjiyə baxışı necədir?**

Prezident İlham Əliyev: Hesab edirəm ki, qazıntı enerji növlərinə malik olan ölkələrin məsuliyyəti əldə etdikləri gəlirləri yaşıl texnologiyaya və yaşıl enerjiyə investisiya etməkdən ibarətdir. Biz məhz bunu edirik. Biz investorlar üçün yaxşı investisiya mühitini yaratdıq. Bizim 2027-ci ilə qədər olan hədəfimiz 2 giqavat həcmində Günəş və külək elektrik enerjisini hasil etməkdir. 2030-cu ilə qədər isə bu hədəf 6 giqavatdır. Bu, Azərbaycanda enerji sahəsində bir inqilab olacaqdır. Onu da qeyd etmək istəyirəm ki, bu layihələrə sərmayə yatıran xarici şirkətlər olan investorlar, o cümlədən Azərbaycandan olan yerli şirkətlər Çin texnologiyasından istifadə edirlər. Günəş panelləri Çində istehsal olunur. İndi bizim heyətlərimiz enerjinin tədarükü imkanları üzərində işləyirlər və biz ən yaxşı batareyaların Çində istehsal olunduğunu müəyyən etmişik. Mən bu möhtəşəm uğur münasibətilə Çin istehsalçılarını təbrik edirəm. Çünki burada söhbət məhsulun keyfiyyəti və qiymətindən gedir. Heç kim bu rəqabəti apara bilmir.

## Azərbaycan yaşıl keçiddə çox fəal rol oynayır

**Aparıcı: Bu, xüsusilə Qlobal Cənub ölkələri üçün vacibdir.**

Prezident İlham Əliyev: Bəli. İndi Çin şirkətləri təkcə xidmət və texnologiyaların təmin edilməsində yox, həmçinin Azərbaycana investisiya yatırmaqda maraqlıdırlar və bu proses artıq gedir. COP29-da biz Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında Xəzər dənizinin dibi ilə enerji kabelinin çəkilməsi barədə bir müqavilə imzaladıq. Beləliklə, biz Mərkəzi Asiya ilə Azərbaycanı və potensial olaraq Çini enerji kabeli ilə bir-biri ilə bağlayacağıq. Digər bir layihədə belə bir kabel xətti Qara dənizin dibi ilə Azərbaycandan Avropaya uzanacaq.

Bu, növbəti bir bağlantı layihəsidir. Bu, yaşıl enerji üçün bir dəhlizdir və onun nəhəng potensialı var. Çünki Azərbaycanın külək və Günəş enerjisi potensialı artıq bəllidir və bu, bizim təsəvvürə gətirə biləcəyimizdən qat-qat artıqdır. Beləliklə, bizə bazarlar, texnologiya və əməkdaşlıq lazımdır. Çünki qonşu ölkələr arasında əməkdaşlıq olmadan bu layihələrin icrası mümkün deyil. Beləliklə, potensial buradadır və siz qeyd etdiyiniz kimi, Azərbaycan yaşıl keçiddə çox fəal rol oynayır.

**Aparıcı: Bu necə olur, prosesin hər bir mərhələsində Azərbaycan və Çin bir-biri ilə təmasda olur. Bu heyrətamizdir, elə deyilmi?**

Prezident İlham Əliyev: Bəli.

**Aparıcı: Hər iki ölkə həmişə bir-birini öz planlarına daxil edir.**

Prezident İlham Əliyev: Bu, həqiqətən də ciddi geosiyasi sinerjiyə çevrilib.

**Aparıcı: İndi qeyd edilmiş strateji tərəfdaşlıq hər şeyi təkmilləşdirir.**

Prezident İlham Əliyev: Bəli, elədir ki, var. Həmçinin bu yaxınlarda biz Çin vətəndaşlarını viza almaq tələbindən azad etdik. Beləliklə, indi Çin vətəndaşları heç elektron viza üçün də müraciət etmək məcburiyyətində deyillər. Ümidvarıq ki, tezliklə Azərbaycan vətəndaşları da bu fürsətdən yararlanacaq. Beləliklə, bu, turistlərin sayını, xalqlar arasında təmasları artıracaq və əlbəttə ki, ictimai diplomatiya öz rolunu oynayacaq. İndi biz rəsmi diplomatik kanallardan istifadə edirik - siyasi, iqtisadi, ticari, investisiya, bağlantı. Lakin ictimai diplomatiya buna çoxlu töhfə verəcəkdir.

**Aparıcı: Sonda iki sualım var. Birincisi, Çin iqtisadiyyatı ilə bağlıdır. Bildiyiniz kimi, cənab Prezident, Azərbaycan və Çin xüsusilə iqtisadi-ticari sahədə bir-biri ilə sıx əməkdaşlıq edirlər. Çin iqtisadiyyatı keçid dövrünü yaşayır. O, yeni inkişaf nöqtələrini axtarır və eyni zamanda, böyük potensiala malikdir. Çin iqtisadiyyatının cari vəziyyəti haqqında nə düşünürsünüz və Qlobal Cənub iqtisadiyyatı olaraq Siz Çində bu iqtisadiyyatın xüsusiyyətində nəyi görürsünüz?**

Prezident İlham Əliyev: Mən bildiyimə görə, - mən yeni planlar haqqında dərindən məlumatlı deyiləm, lakin bizim müşahidə etdiklərimizə əsasən, - Çin iqtisadiyyatı çox sabitdir və bu, qlobal iqtisadiyyatın mühüm bir amilidir. Qazıntı enerji növləri üzrə sabit qiymətlərə ehtiyacı olan Azərbaycan kimi ölkə üçün Çin iqtisadiyyatı da mühüm bir amildir. Çin iqtisadiyyatı sürətlə inkişaf etdikcə, qazıntı enerji növünə olan tələbat daha da artır. Odur ki, biz Çin iqtisadiyyatının həmişə inkişaf etməsi nöqteyi-nəzərindən maraqlıyıq. Lakin bu, asan deyil. Çünki iqtisadiyyatınız ildən-ilə artdıqca, müəyyən bir təməl həcmə nail olunur və ondan sonra iqtisadiyyatın artırılmasına davam etmək o qədər də asan olmur.

**Aparıcı: Gözləntilər də çox böyük olur.**

Prezident İlham Əliyev: Bəli, gözləntilər çox böyükdür. Lakin mən əminəm ki, istedadlı Çin xalqı bir həll yolunu tapacaqdır. Əminəm ki, onlar artıq yeni inkişaf nöqtələrinə çatıblar, çünki sizin ölkəniz texnologiyada liderdir və Azərbaycanda bir çox Çin şirkətləri öz xidmətlərini və texnologiyasını təmin edir. Bizim indicə müzakirə etdiyimiz kimi, yaşıl texnologiya sahəsində heç kim sizinlə rəqabət apara bilməz. Dünyanın müxtəlif yerlərindən olan, müxtəlif şirkətləri təmsil edən investorlarımız bu tutumları quraşdırmaq üçün Çin texnologiyasını seçirlər.

## Liderlərə məsləhətim o olardı ki, həmişə həqiqəti söyləyin

**Aparıcı: Cavabınız üçün təşəkkür edirəm. Son sualım. Deyə bilərəm ki, dünya çox sürətlə dəyişir. Lakin cənab Prezident, hər dəfə Sizinlə danışanda mənə elə gəlir ki, ölkəniz çox güclü təməl üzərində dayanıb. Mənə maraqlıdır, bu, təkcə özünüz barədə yox, bu gün olan liderlik haqqında nəyi bildirir? Xüsusilə bütün bu dəyişikliklərin baş verdiyi bir vaxtda.**

Prezident İlham Əliyev: Liderlik, əlbəttə ki, böyük bir məsuliyyətdir və ən önəmlisi ondan ibarətdir ki, lider həmişə öz xalqına, öz əhalisinə münasibətdə ədalətli olmalıdır. Heç vaxt xalqına yalan danışmamalısan və xalq bunu yüksək qiymətləndirəcək. Bəzən müəyyən siyasi səbəblər üzündən hakimiyyətə can atan liderlər çoxlu vədlər verir və sonra onları yerinə yetirmir və bu da məyusluğa, inamsızlığa gətirib çıxarır. Bu, dünyanın müxtəlif yerlərində siyasi böhrana gətirib çıxarır.

Lakin bizə gəldikdə, iyirmi ildən artıq müddət ərzində mən həmişə Azərbaycan xalqına həqiqəti söyləmişəm. Bu həqiqətin müsbət və ya mənfi olmasından asılı olmayaraq. Həmişə xalqıma biz ədaləti bərpa edəcəyik söyləmişəm və xalqım da mənə inanıb. 17 il hakimiyyətdə olandan sonra biz, nəhayət, vəd etdiklərimizi yerinə yetirdik və suverenliyimizi, ərazi bütövlüyünü və ləyaqətimizi bərpa etdik. Beləliklə, ictimaiyyətin dəstəyini əldə etmək istəyən liderlərə məsləhətim o olardı ki, həmişə həqiqəti söyləyin və beynəlxalq təzyiqdən, beynəlxalq mediadan asılı olmayaraq, haqqınızda nə dediklərindən, sizi necə adlandırdıqlarından, sizi necə təhqir etmələrindən asılı olmayaraq, ölkəniz üçün doğru olanı edin. Beləliklə, siz özünüz və ölkəniz uğur qazanmış olacaqsınız.

**Aparıcı: Təşəkkür edirəm, cənab Prezident. Bildiyiniz kimi, bu il Dünya İqtisadi Forumundan dərhal sonra Çin Yeni İli qeyd olunacaq. İstərdim ki, Siz öz çinli dostlarınıza və böyük Çin xalqına bu münasibətlə ürək sözlərinizi deyərək, bizi bu şərəfə nasib edəsiniz.**

**Çin Yeni İlidir, ona Bahar bayramı da deyilir. Bu il ilan ilidir və insanlardan çevik olmasını tələb edir. Bu, bir ənənədir.**

Prezident İlham Əliyev: Mən Çin xalqını Çin Yeni İli münasibətilə təbrik etmək və bütün dostlarımıza tərəqqi, sülh, sabitlik və səadət arzulamaq istəyirəm. Çin və Azərbaycan 6-7 ay bundan əvvəl strateji tərəfdaş oldular. Bu, hətta bundan daha da yaxşı dost olmaq üçün bizim qarşılıqlı iradəmizi nümayiş etdirən yüksəksəviyyəli tərəfdaşlıqdır. Fürsətdən istifadə edərək, çinli dostlarımızı Azərbaycanı ziyarət etməyə dəvət edirəm. Onlara bunu etmək üçün artıq viza tələb olunmur. Sadəcə, bilet alıb gələ bilərlər və Azərbaycanın necə inkişaf etdiyini görə bilərlər və özlərinə yeni dostlar qazana bilərlər. Əminəm ki, xalqlararası təmaslar ölkələrimizi və xalqlarımızı bir-birinə daha da yaxın edəcək. Yeni İliniz mübarək olsun!

**Aparıcı: Çox sağ olun, cənab Prezident. Ümid edirəm ki, bu il Azərbaycan xalqı üçün də möhtəşəm bir il olacaqdır.**

Prezident İlham Əliyev: Çox sağ olun.

**Aparıcı: Çox sağ olun.**

# Konstitusiya quruluşunun və suverenliyin tam təmin edilməsi tarixi nailiyyətdir




Ölkəmizdə 2025-ci il Prezident İlham Əliyevin imzaladığı 28 dekabr 2024-cü il tarixli Sərəncama əsasən "Konstitusiya və Suverenlik İli" elan edilib. Məhz bu il müstəqil Azərbaycanın ilk Konstitusiyasının (Əsas Qanunu) qəbul edilməsinin 30 illiyi və 44 günlük Vətən müharibəsində qazanılan tarixi Qələbəmizin 5-ci ildönümüdür. Dövlətimizin başçısının 11 fevral 2025-ci il tarixində imzaladığı növbəti Sərəncamla respublikamızda 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı təsdiqlənib. Sənəddə ilin sonunadək müxtəlif istiqamətlərdə genişmiqyaslı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub.

**Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan mükəmməl Konstitusiya**

Müstəqil Azərbaycanın Konstitusiyası 12 noyabr 1995-ci il tarixində ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul olunub. Referendumda seçicilərin 86 faizi iştirak edib və onların 91,9 faizi Konstitusiyanın qəbul edilməsinin lehinə səs verib. Əsas Qanun noyabrın 27-də hüquqi qüvvəyə minib.

1995-ci ildə qəbul olunmuş Əsas Qanun müstəqil Azərbaycanın ilk, ümumilikdə isə respublikamızın tarixində dördüncü Konstitusiyasıdır.1918-1920-ci illərdə 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti dövlətin Əsas Qanununu qəbul edə bilməmişdi. Beləliklə, Azərbaycanda Konstitusiya quruluşunun tarixi keçmiş SSRİ dövrünə təsadüf edir. Azərbaycanın ilk Konstitusiyası 1921-ci ilin mayın 19-da, keçmiş SSRİ Konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyası isə 1925-ci il martın 14-də qəbul olunub. 1978-ci il aprelin 21-də qəbul edilmiş növbəti Əsas Qanun da əvvəlki konstitusiyalar kimi, keçmiş ittifaq Konstitusiyasına uyğunlaşdırılmışdı.

Müstəqil Azərbaycanın ilk Konstitusiyasının müəllifi xalqımızın Ümummilli Lideri Heydər Əliyevdir. Ulu Öndər 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə Azərbaycanın siyasi rəhbərliyinə qayıtdı və verdiyi müdrik qərarlarla qısa müddətdə respublikamızda sabitliyi bərqərar etdi, ölkənin potensialını inkişafa istiqamətləndirdi. Uzun illərin dövlət idarəçiliyi təcrübəsinə malik olan Heydər Əliyev yaxşı başa düşürdü ki, keçmiş sovet respublikasının Əsas Qanunu ilə müstəqil Azərbaycanın yeni reallıqlarını uzlaşdırmaq və inkişafı təmin etmək əsla mümkün deyil. Beləliklə, Onun təşəbbüsü ilə müstəqil respublikamızın ilk Konstitusiyasının layihəsinin hazırlanmasına başlanıldı. 1995-ci ilin may ayında yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın tərkibi Milli Məclis tərəfindən təsdiqləndi.

Ümummilli Liderimiz Heydər Əliyevin rəhbərlik etdiyi komissiya Konstitusiya layihəsinin hazırlandığı dövrdə bir neçə dəfə açıq müzakirələr keçirib. Müzakirələrdə Ulu Öndər müddəaların hər birinə şəxsən diqqət yetirib, mövqeyini bildirib və təkliflərini verib. Nəticədə, mükəmməl bir qanun layihəsi ərsəyə gəlib.

Dünyanın qabaqcıl ölkələrinin təcrübəsi nəzərə alınmaqla hazırlanan Azərbaycan Konstitusiyası 5 bölmə, 12 fəsil, 158 maddədən ibarətdir. Sənəd ölkəmizin hərtərəfli inkişafı üçün geniş hüquqi əsaslar yaradır. Burada demokratik cəmiyyət quruculuğu əsas hədəflərdən biri kimi müəyyənləşdirilib. Belə ki, Konstitusiyada ölkəmizdə demokratikləşmə prosesinin əhatə dairəsinin genişlənməsini, vətəndaş cəmiyyətinin fəallığının artırılmasını, vətəndaşların hüquq və azadlıqlarının qorunmasını, fikir plüralizminin, siyasi fəaliyyət azadlığının təmin olunmasını özündə ehtiva edən çoxsaylı müddəalar yer alıb.

Zamanın iti axarında qarşıya yeni çağırışlar çıxır. Ölkəmizdə də sonrakı mərhələdə yeni inkişaf səviyyəsinə uyğun olaraq bir neçə dəfə Konstitusiya islahatları həyata keçirilib. 2002-ci il avqustun 24-də referendum yolu ilə Konstitusiyanın 24 maddəsində 29, 2009-cu il martın 18-də isə 25 maddəyə 30-dan artıq əlavə və dəyişiklik olunub. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla Konstitusiyaya üçüncü dəfə əlavələr və dəyişikliklər edilib. Bu dəfə Konstitusiyanın 29 maddəsinə 41 əlavə və dəyişiklik olunub. Növbəti referendum ölkəmizdə idarəetmə mexanizminin təkmilləşdirilməsi istiqamətində atılan mühüm addım idi. Yeni Konstitusiya islahatlarına uyğun olaraq Azərbaycanda vitse-prezidentlik institutu formalaşdırıldı. Artıq tarixə dönən 2017-ci il referendum yolu ilə təsdiqlənən Konstitusiya islahatlarının reallaşdırılması istiqamətində mühüm il oldu. Prezident İlham Əliyevin 2017-ci il 21 fevral tarixində imzaladığı müvafiq Sərəncama əsasən Mehriban Arif qızı Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilib. Hazırda respublikamızda Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Birinci vitse-prezidentlik institutu funksional təsisat kimi uğurla fəaliyyət göstərir.



Qarabağda Azərbaycanın suverenliyinin tam bərpası

Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıllıqla həyata keçirilən siyasəti müstəqillik və suverenlik prinsiplərinə əsaslanır. Dövlətimizin başçısı tərərfindən ümummilli hədfəflər müəyyənləşdirlir və milli güc qarşya qoyulan məqsədlərə çatılmasına səfərbər edilir. Prezident İlham Əliyev İkinci Qarabağ müharibəsindən əvvəlki mərhəədə ərazi bütövlüyümüzün təmin edilməsini ölkənin gündəliyinin mərkəzində saxlanılmasına nail oldu. Bu məqsədlə iqtisadiyyat gücləndirildi, müasir Ordu quruldu, vətənpərvər ruhlu gənclər yetişdirildi. Bütün bunlar da 2020-ci ildə apardığımız 44 günlük ədalətli müharibədə şanlı Zəfərimizi şərtəndirən əsas amillər qismində çıxış etdi.

Bununla belə, müharibə başa çatdıqdan sonrakı mərhələdə məğlub Ermənistanın üçtərəfli Bəyanatın şərtərini pozmaqla silahlı qüvvələrinin təxminən 15 minlik kontingentini ölkəmizin ərazisində saxlaması qəbuledilməz idi. Separatçı rejimin nəzarətində olan ərazilərimizdə tez-tez təxribatlar törədilirdi. Bu, açıq-aşkar Konstitusiya quruluşunun, suverenliyin pozulması demək idi ki, Azərbaycan dövləti bununla barışa bilməzdi və barışmadı da. 2023-cü il sentyabrın 19-da başlayan lokal xarakterli antiterror tədbirləri Azərbaycan Ordusunun gücünün növbəti təzahürü oldu. Cəmi bir gün davam edən antiterror tədbirlərinin nəticəsi olaraq separatçılar ağ bayraq qaldırmaq məcburiyyətində qaldılar.

Qarabağ ərazisində suverenliyimiz lokal xarakterli antiterror tədbirlərinin nəticələrinə uyğun olaraq tam təmin ediləndən sonra Azərbaycan cəmiyyəti Xankəndidə və digər ərazilərimizdə bayrağımızın ucaldılmasını səbirsizliklə gözləyirdi. Nəyahət, o şərəfli və tarixi gün də gəldi. Nəyi necə və nə zaman etməyi hamıdan yaxşı bilən Prezident İlham Əliyev Xankəndidə üçrəngli bayrağımızın ucaldılmasının sevincini bizlərə tarixi gündə - Onun Prezident seçilməsinin 20-ci ilinin tamam olduğu 15 oktyabr 2023-cü ildə yaşatdı. Oktyabrın 15-də Prezident İlham Əliyev üçrəngli bayrağımızı, həmçinin Xocalı, Xocavənd, Ağdərə şəhərlərində, Əsgəran qəsəbəsində də ucaldıb.

Geniş əhatə dairəsinə malik Tədbirlər Planı

Ölkənin bütün ərazisində Konstitusiya quruluşunun və suverenliyin tam bərpa edilməsi tarixi nailiyyətdir. Bütövlükdə 44 günlük müharibədə və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində qazanılan qələbələr son 200 illik tariximizin ən parlaq səhifələrin təşkil edir. Bu qələbələr tariximizdə əbədi qalacaq və həmişə də qürur mənbəyimiz olacaq. Vurğulamaq yerinə düşər ki, Prezident İlham Əliyevin 19 sentyabr 2024-cü il tarixində imzaladığı Sərəncama əsasən ölkəmizdə hər il 20 sentyabr Dövlət Suverenliyi Günü kimi qeyd edilir.

Dövlətimizin başçısının təsdiqlədiyi Tədbirlər Planı geniş əhatə dairəsinə malikdir. Sənədə əsasən, Dövlət Suverenliyi Gününün və Konstitusiyanın qəbulunun 30 illiyinin geniş qeyd olunması, bununla əlaqədar yerli və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi nəzərdə tutulur. İl ərzində "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda silsilə tədbirlər təşkil olunacaq. Milli Məclisin "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş xüsusi iclasının keçirilməsi də Tədbirlər Planına daxildir. Sənəddə "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş forumların, konfransların, simpoziumların, dəyirm masaların, seminarların, müsabiqələrin, müxtəlif mədəni-kütləvi tədbirlərin təşkili, vətənpərvərlik mahnılarının (marşların) yazılması, beynəlxalq turizm sərgilərində Azərbaycan milli stendində "Konstitusiya və Suverenlik İli" haqqında məlumatların təqdim plunması nəzərdə tutulub. İl ərzində Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri, eləcə də diaspor təşkilatları, koordinasiya şuraları, Azərbaycan Evləri və həftəsonu məktəbləri tərəfindən "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş tədbirlər təşkil olunacaq. Bundan başqa, ölkənin şəhər və rayonlarında davamlı olaraq ağacəkmə aksiyaları keçiriləcək.

*Mübariz ABDULLAYEV*




## III MDB Oyunları üzrə Təşkilat Komitəsinin ilk iclası keçirilib

Fevralın 12-də Azərbaycan Prezidentinin 2024-cü il 10 iyul tarixli Sərəncamı ilə yaradılan III MDB Oyunlarının 2025-ci ildə Azərbaycanda keçirilməsi üzrə Təşkilat Komitəsinin ilk iclası keçirilib. Baş nazirin müavini, Təşkilat Komitəsinin sədri Samir Şərifovun rəhbərliyi ilə keçirilən iclasda Oyunlara hazırlıqla bağlı məsələlər ətraflı müzakirə edilib. İclasda qeyd olunub ki, III MDB Oyunları 23 idman növü üzrə təşkil edilməklə, "2025-ci ildə Müstəqil Dövlətlər Birliyinin idman paytaxtı" olan Gəncə şəhərində və ölkəmizin digər 6 şəhərində sentyabrın 28-dən oktyabrın 8-dək müddətdə keçiriləcək. Gəncədə 8, Mingəçevirdə 4, Qəbələdə 4, Şəkidə 3, Göygöldə 2, Yevlaxda 1 və Xankəndidə 1 idman növü üzrə yarışlar təşkil ediləcək.

İclasda idman obyektlərinin hazırlığı, nəqliyyat və logistika məsələləri, iştirakçıların yerləşdirilməsi, könüllülərin cəlb olunması, akkreditasiya prosesi, oyunların mediada yayımı, açılış və bağlanış mərasimlərinə hazırlıq və digər məsələlər üzrə geniş təqdimatlar edilib.

Təşkilat Komitəsinin sədri Samir Şərifov Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanın bir çox mötəbər beynəlxalq tədbirlərə, o cümlədən idman sahəsində Birinci Avropa Oyunlarına, İslam Həmrəylik Oyunlarına və digər böyük tədbirlərə yüksək səviyyədə ev sahibliyini qeyd edərək, III MDB Oyunlarının da ölkəmizdə peşəkarlıqla və layiqincə keçirilməsi üçün səfərbər olmağın zəruriliyini Təşkilat Komitəsinin üzvlərinin diqqətinə çatdırıb.

# Böyük Qayıdış hədəfinə doğru



Yeni strateji mərhələdə işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın təmin edilməsi ölkəmizin beş mühüm prioritetindən biri kimi müəyyənləşdirilib. 2022-ci il 16 noyabr tarixində Prezident İlham Əliyevin imzaladığı Sərəncamla "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın Tədbirlər Planı təsdiqlənib. Bəhs olunan Dövlət Proqramına uyğun olaraq ərazilərin minalardan təmizlənməsi, yeni infrastrukturun qurulması, yaşayış məntəqələrinin, tarixi abidələrin bərpası, istehsal müəssisələrinin yaradılması istiqamətində genişmiqyaslı layihələr həyata keçirilir.

Vətən müharibəsində işğaldan azad edilmiş ərazilərin bərpası və dayanıqlı şəkildə məskunlaşdırılması postmüharibə dönəmində qarşıda duran əsas məqsədlərimizdən biridir. Bu hədəfə çatmaq üçün adıcıl tədbirlər görülür və müvafiq qurumların koordinasiyalı fəaliyyəti təmin edilir. Bu günlərdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Xankəndi şəhərində Qərargahın növbəti iclası keçirilib.

**Quruculuq və bərpa işləri geniş vüsət alıb**

Müharibə başa çatandan sonra Ermənistan və işğalçı dövlətin havadarları dövriyyəyə məlumatlar buraxırdılar ki, guya Azərbaycanın işğaldan azad olunmuş ərazilərin bərpasına gücü çatmayacaq və yaxud buna onilliklər lazım gələcək. Bəli, işğal dövründə erməni vandalları bu ərazilərdə hər şeyi dağıtmış və talamışdılar. Ancaq dağıntıların miqyasının böyük olmasına baxmayaraq, qalib Azərbaycan bəhs olunan ərazilərin bərpasına müharibə başa çatandan dərhal sonra başladı. Müharibədən çıxan ölkənin vaxt itirmədən öz gücünə tamamilə dağıdılmış ərazilərin bərpasına başlaması dünya tarixində bir ilkdir.

İclası giriş sözü ilə açan Samir Nuriyev Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərdə quruculuq və bərpa işlərinin geniş vüsət aldığını qeyd edib. Dövlətimizin başçısının təsdiq etdiyi "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq həyata keçirilən irimiqyaslı layihələr çərçivəsində müasir infrastruktur qurulur, keçmiş məcburi köçkünlərin rahat şəkildə öz yurdlarına qayıtmaları və məskunlaşmaları üçün yaşayış məntəqələri salınır, ərazilərdə zəruri şərait yaradılır.

Əlamətdar haldır ki, Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərin bərpasını və Böyük Qayıdış Proqramının icrasını şəxsi nəzarətində saxlayır. O, tarixi zəfərlərimizin baş memarı olduğu kimi, bərpa və yeidənqurma işlərinə də böyük həssaslıqla yanaşır, mütəmadi olaraq birinci xanım Mehriban Əliyeva ilə birlikdə işğaldan azad edilmiş ərazilərə səfər edərək müxtəlif layihələrin icrası ilə bağlı Özünün dəyərli tövsiyələrini verir. Qeyd edək ki, dövlətimizin başçısı postmüharibə dövründə işğaldan azad edilmiş ərazilərə 100 dəfədən çox səfər edib və hər səfər də yeni açılışlarla, təməlqoyma mərasimləri ilə əlamətdar olub.

Ötən il Şuşaya və Xocalıya ilk köçlərin baş tutması son dərəcə mühüm hadisələrdir. Bu iki yaşayış məntəqəsi bizim üçün müstəsna önəm daşıyır. Bütövlükdə, postmüharibə mərhələsində I Böyük Qayıdış Proqramı 10 minədək soydaşımızı əhatə edib. 2026-cı ilədək isə 34 500 ailənin və ya 140 min vətəndaşımızın köçürülməsi nəzərdə tutulub. Hazırda işğaldan azad olunmuş ərazilərdə müxtəlif sahələrdə çalışan işçilər də nəzərə alınmaqla 40 minə yaxın insan yaşayır.

İşğaldan azad olunmuş ərazilərdə nəzərdə tutulan layihələr bundan sonra da intensivliklə davam etdiriləcək . İclasda qeyd edilib ki, Böyük Qayıdışın vaxtında və keyfiyyətli şəkildə təmin edilməsi məqsədilə müəyyənləşdirilmiş hədəflərə nail olmaq üçün bütün resursların səfərbər edilməsi, bərpa-quruculuq layihələrinin əlaqəli və planlı şəkildə icrası və vaxtında təhvil verilməsi mühüm əhəmiyyətə malikdir.



**Köçürülən əhalinin məşğulluğunun təmin olunması**

İşğaldan azad edilmiş ərazilərdə məskunlaşmanın dayanıqlı olması üçün aparılan bərpa və quruculuq işləri ilə yanaşı, köçürülən əhalinin məşğulluğunun təmin olunması istiqamətində də zəruri işlərin görülür. Əlverişli iqlim mühitinə və coğrafi şəraitə malik Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqrar, sənaye və turizm sahələrinin inkişafı baxımından böyük imkanların olduğu qeyd edilərək, məskunlaşma prosesi ilə paralel olaraq, istehsal və emal, ticarət, xidmət, sənaye müəssisələrinin qurulduğu, müxtəlif iqtisadi fəaliyyət sahələrinin yaradıldığı, dövlətimizin başçısının sərəncamlarına uyğun olaraq ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektləri üçün maliyyə resurslarına çıxış imkanlarının genişləndirildiyi, vergi və gömrük güzəştlərinin, həmçinin digər stimullaşdırıcı mexanizmlərin tətbiq olunduğu iclas iştirakçılarının diqqətinə çatdırılıb.

Hazırda işğaldan azad edilmiş ərazilərdə, o cümlədən Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında, ümumilikdə, 400-dən çox müəssisə fəaliyyət göstərir. İndiyədək Ağdam Sənaye Parkında 29 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Bu rezidentlər tərəfindən sənaye parkına 276 milyon manatdan çox investisiya yatırılması və 2400-dən artıq iş yerinin yaradılması nəzərdə tutulur. Artıq sahibkarlar tərəfindən parkda görülmüş işlərə 107 milyon manatdan çox investisiya yatırılıb, 457 daimi iş yeri yaradılıb.

"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı işğaldan azad edilmiş ərazilərdə reallaşdırılan irimiqyaslı layihələrdən biridir. Prezidenti İlham Əliyev Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının təməlini 4 oktyabr 2021-ci il tarixində qoyub. 18 sahibkarlıq subyekti tərəfindən sənaye parkına, ümumilikdə, 130 milyon manatdan çox investisiyanın yatırılması, 1800-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur. Bu günədək sənaye parkında görülmüş işlərə rezidentlər tərəfindən 29,6 milyon manatdan çox investisiya yatırılıb, 100-ə yaxın daimi iş yeri yaradılıb.

*Mübariz FEYİZLİ*

# Bakıda Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyası keçiriləcək

*NARDAR*

Fevralın 18-dən 20-dək Bakıda Azərbaycanın sədrliyi ilə Asiya Parlament Assambleyasının (APA) 15-ci plenar sessiyası keçiriləcək. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, "Asiyada çoxtərəfli əməkdaşlığın gücləndirilməsində parlament diplomatiyasının rolu" mövzusuna həsr olunmuş sessiyada 30-dan çox ölkə parlamentinin və beynəlxalq təşkilatın nümayəndə heyətlərinin, o cümlədən 10-dan çox ölkə spikerinin iştirakı gözlənilir.

Tədbir çərçivəsində qurumun İcraedici Şurasının, plenar sessiyasının, siyasi, iqtisadi, büdcə və sosial sahələrə dair komitələrinin iclasları keçiriləcək, müvafiq məsələlərə dair qərar layihələri müzakirə olunacaq, bir sıra təşkilati məsələlərə baxılacaq.

Sessiya dövründə tədbirdə iştirak edən nümayəndə heyətləri arasında bir sıra ikitərəfli görüşlərin keçirilməsi də nəzərdə tutulur. Görüşlərdə APA-nın bu günü və gələcək inkişaf istiqamətləri barədə fikir mübadiləsi aparılacaq.

Sessiyanın sonunda Bakı Bəyannaməsi və APA Katibliyinin yekun hesabatı qəbul ediləcək.

Qeyd edək ki, Azərbaycan Asiya Parlament Assambleyasına sədrlik edir. Hələ 2023-cü ilin sentyabrında ölkəmiz bu qurumun sədrliyinə namizədliyini irəli sürmüşdü. Həmin ilin noyabrında isə Türkiyənin Antalya şəhərində 20 dövlətin parlament nümayəndə heyətinin təmsil olunduğu Asiya Parlament Assambleyasının İcraedici Şurasının iclasında Azərbaycan APA-nın 2024-2025-ci illər üzrə sədri seçilib.

Ötən il 22-23 fevral tarixində isə Bakıda Asiya Parlament Assambleyasının 14-cü plenar sessiyası keçirilmişdi. "Asiyada dayanıqlı inkişaf naminə regional əməkdaşlığın gücləndirilməsi" mövzusuna həsr olunan sessiyada 40-dək ölkənin parlament nümayəndə heyəti, o cümlədən 10-a yaxın ölkənin spikeri, habelə bir sıra beynəlxalq parlament təşkilatlarının rəhbərləri və təmsilçiləri iştirak ediblər.

THE MILLI MAJLIS OF THE REPUBLIC OF AZERBAIJAN

Tədbirdə əvvəlcə Asiya Parlament Assambleyasının Baş katibi Mohammad Reza Majidi çıxış edib. Baş katib Asiya Parlament Assambleyasına sədrliyin növbəti iki il üçün Türkiyədən Azərbaycana keçdiyini söyləyib. O, Azərbaycanın sədrliyi ilə Asiya Parlament Assambleyasının gələcək fəaliyyətində uğur qazanacağına inamını ifadə edib.

Tədbirdə Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş quruma rəhbərliyi Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarovaya təhvil verib. S.Qafarova Türkiyə Böyük Millət Məclisinin təşkilata uğurlu sədrliyini vurğulayıb. Deyib ki, son illərdə görülən işlər parlamentlərarası əməkdaşlığın inkişafı üçün əhəmiyyətli olub. O bildirib ki, bu gün humanitar böhranlar, münaqişələr, yoxsulluq, iqlim dəyişikliyi ilə yanaşı, ayrı-seçkilik, irqçilik, ksenofobiya və islamofobiyanın artması kimi aktual problemlər Asiya regionuna da mənfi təsir göstərir. Bütün bu çağırışlar ayrı-ayrılıqda deyil, yalnız kollektiv, birgə səylərlə həll edilə bilər. Bu, bölgəmizdə sülh, təhlükəsizlik, sabitlik və davamlı inkişaf üçün də keçərlidir. Parlamentin sədri daha sonra qeyd edib ki, Asiyanın əməkdaşlıq, dialoq və həmrəylik baxımından təklif edəcəyi çox şey var. Bu mənada, Asiya Parlament Assambleyası bu məqsədlər üçün mühüm çoxtərəfli platformanı təmsil edir.

Tədbirdə Assambleyanın müxtəlif komitələrinin iclası da keçirilib, "Qadınlar üzrə Komissiya haqqında", "Asiyada mədəni müxtəlifliyin təşviqi və mədəni irsin qorunması üzrə tədbirlər haqqında", "İnformasiya və Kommunikasiya Texnologiyaları vasitəsilə Asiya İnteqrasiyasına dair", "Asiyada sağlamlıq bərabərliyi üzrə əməkdaşlıq haqqında", "Asiya parlamentarilərinin korrupsiyaya qarşı mübarizəsi haqqında", "Dünya dinlərinin ardıcılları arasında dialoqun və harmoniyanın təşviq edilməsi haqqında", "Asiyada mədəni sərvətlərin qaçaqmalçılığına qarşı mübarizədə hüquqi və qanunvericilik sahəsində əməkdaşlıq haqqında", "Asiyada narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizədə səmərəli əməkdaşlıq haqqında", "Asiyada davamlı cəmiyyət üçün keyfiyyətli uşaq və gənclərin inkişafının təşviqi haqqında" və başqa qərar layihələri müzakirə olunub.

Eyni zamanda, 14-cü sessiyada qurumun yeni - Fələstin komitəsinin yaradılması barədə də qərar verilib.

Assambleyanın 14-cü sessiyasının sonunda Bakı Bəyannaməsi və yekun hesabatı qəbul olunmuşdu.

# Yeni əməkdaşlıq perspektivi...

## Afrika ilə Azərbaycan arasında mühüm əlaqələr formalaşır

Azərbaycan dövlətinin həyata keçirdiyi çoxvektorlu xarici siyasət kursu ölkəmizin dünya miqyasında siyasi-iqtisadi nüfuzunun gündən-günə artmasında əsaslı şərt kimi çıxış edir. Əldə olunan yüksək iqtisadi göstəricilər, diplomatik uğurlar, regionda formalaşdırılan və təhlükəsizliyə istiqamətlənən yeni siyasi reallıqlar, eyni zamanda, fərqli coğrafiyaların enerji təminatında oynadığı əhəmiyyətli rol Azərbaycana olan qlobal marağın artmasını şərtləndirib. Eyni zamanda, Azərbaycanın yeni mərhələdə formalaşan iqtisadi-siyasi, ticari münasibətlər sistemində verdiyi töhfələr, ən kritik məqamlarda irəli sürdüyü təşəbbüslər beynəlxalq aləmdə yüksək dəyərləndirilir. Bu isə nəticədə ölkəmizə olan müsbət maraqları artırır. Burada əsas məqamlardan biri də Azərbaycanın beynəlxalq münasibətlər sistemində bərabərhüquqlu əməkdaşlığı təbliğ etməsidir. Beləliklə, Azərbaycanın dünyanın demək olar ki, əksər coğrafi məkanları ilə fəal iqtisadi-ticari əlaqələr formalaşdırır. Nəticə isə göz önündədir - bu gün ABŞ, Aİ, Türkiyə, ərəb-islam dünyası, Mərkəzi Asiya, Uzaq Şərq, Çin, hətta fərqli qitələrin təmsilçiləri Azərbaycanın apardığı uğurlu siyasətin dəstəkçisi, tərəfdaşı kimi çıxış edir, əməkdaşlıq üçün can atırlar.

Afrika qitəsinin şərqində yerləşən Somali İslam Əməkdaşlıq Təşkilatının (İƏT) və Qoşulmama Hərəkatının üzvüdür. Bu müsəlman ölkəsi İƏT və Qoşulmama Hərəkatı çərçivəsində Azərbaycanla qarşılıqlı hörmətə, dəstəyə və həmrəyliyə əsaslanan mühüm əməkdaşlıq əlaqələrinə malikdir.





### Dövlətlərarası münasibətlər...

Qeyd edək ki, Azərbaycan ilə Somali arasında diplomatik əlaqələr 2004-cü ilin mart ayının 22-də qurulub. İki ölkə arasında diplomatik münasibətlərin qurulmasından ötən dövr ərzində, xüsusilə son illərdə Azərbaycan-Somali təmaslarının artması əməkdaşlıq perspektivlərinin müzakirəsində faydalı rol oynayır. Azərbaycanla Somali arasında siyasi məsləhətləşmələr haqqında imzalanmış sazişə uyğun olaraq, əməkdaşlığın genişləndirilməsində bu kimi mexanizmlərdən istifadə olduqca vacibdir. Bir sıra istiqamətlər, o cümlədən kənd təsərrüfatı, balıqçılıq, neft və qaz sənayesi, yaşıl enerji, humanitar, təhsil sahələri üzrə əməkdaşlığın inkişafı üçün kifayət qədər geniş potensial mövcuddur. Bu istiqamətlərdə qarşılıqlı təmasların və təcrübə mübadilələrinin aparılması xüsusi əhəmiyyətə malikdir.

Vurğulamalıyıq ki, vaxtilə Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərinə dair İƏT-in Kontakt Qrupunun üzvü kimi Somali daim Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən ölkələrdən biri olub. Bundan əlavə, Somali-Türkiyə münasibətləri Azərbaycanın maraqlarına uyğun şəkildə inkişaf edir, çünki Türkiyə Azərbaycan üçün strateji tərəfdaşdır və onun Afrika ilə əməkdaşlığında mühüm rol oynayır. Somali, həmçinin iqtisadi baxımdan inkişaf etməkdə olan ölkədir və Azərbaycanla enerji, logistika, kənd təsərrüfatı və humanitar sahələrdə əməkdaşlıq potensialı böyükdür.




### Azərbaycan Afrika regionunda sevilən ölkələrdəndir...

Yeni dövrdə yeni nizamda təbii olaraq müsəlman dünyası, xüsusilə, Afrika qitəsində yerləşən ölkələr özlərinin əməkdaşlıq sferalarını genişləndirməyi hədəfləyir. Nəzərə alsaq ki, qlobal münasibətlər sistemində Afrikanın rolu müasir dövrümüzdə artmaqdadır, bu regionun iqtisadi-siyasi potensialı gələcək üçün mühüm proqnozlar vəd edir. Afrika qitəsi gənc əhalisi, təbii sərvətləri və inkişaf potensialı ilə XXI əsrin əsas diqqət mərkəzlərindən birinə çevrilib - əsrlərlə müstəmləkəçilikdən əziyyət çəkmiş bu qitə müasir dövrümüzdə də bəzi hallarda iqtisadi və siyasi asılılıqdan qurtulmaq üçün mübarizə aparır. Bununla yanaşı, sürətli urbanizasiya, texnologiya və infrastruktur sahələrində inkişaf Afrikanın dünya iqtisadiyyatında daha böyük rol oynamağa başlamasına imkan yaradır. Afrika ölkələri öz təbii sərvətlərini və insan resurslarını düzgün idarə edərək dünya iqtisadiyyatında mühüm oyunçulara çevrilə bilərlər. Bu baxımdan Azərbaycan kimi inkişafını uğurla həyata keçirən ölkələrin təcrübəsi Afrika üçün faydalı ola bilər. Afrika ölkələri Azərbaycana münasibətdə müsbət impulsa malikdir. Bunun əsas səbəbi Azərbaycanın heç bir gizli geosiyasi gündəliyinin olmaması və səmimi əməkdaşlıq təklif etməsidir. Azərbaycan digər ölkələrdən fərqli olaraq, Afrika ilə münasibətlərində bərabərhüquqlu tərəfdaşlıq prinsiplərini əsas tutur və qitənin inkişafına real dəstək göstərməyə çalışır. Humanitar və mədəni əlaqələr də bu münasibətlərin dərinləşməsinə töhfə verir. Azərbaycanın müxtəlif humanitar fondları və təşkilatları Afrika ölkələrində səhiyyə, təhsil və ekoloji layihələr həyata keçirir ki, bu da qarşılıqlı etimadı daha da artırır. Xüsusilə, qlobal pandemiya dövründə Qoşulmama Hərəkatının rəhbəri kimi Azərbaycan dünyada vaksin təchizatı məsələsini hər zaman aktual saxlayırdı - bu isə Afrika ölkələrində olduqca yüksək dəyərləndirilir.

Azərbaycanın enerji və kənd təsərrüfatı sahələrində qazandığı təcrübə də Afrika ölkələri üçün maraqlı bir model ola bilər. Ölkəmiz Afrikada müxtəlif infrastruktur layihələrinə sərmayə yatıraraq yerli iqtisadiyyatı stimullaşdırmaqda maraqlıdır və bu addımlar Afrika dövlətləri tərəfindən müsbət qarşılanır. Belə bir yanaşma Afrika ölkələrinin inkişafına real töhfə verməklə yanaşı, Azərbaycanın da beynəlxalq nüfuzunun artmasına şərait yaradır.



### TDT ilə İƏT arasında birləşdirici körpü...

Azərbaycan Türk dünyası ilə Afrika arasında institusional əməkdaşlığın təşəbbüskarı kimi çıxış edir. Türk Dövlətləri Təşkilatı (TDT) və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) çərçivəsində Afrika ölkələri ilə əlaqələrin genişləndirilməsi istiqamətində mühüm addımlar atılır. Azərbaycan həm siyasi, həm də iqtisadi sahədə bu iki region arasında əlaqələrin inkişafına töhfə verən əsas aktorlardan biridir. TDT çərçivəsində Afrika ölkələri ilə ortaq layihələrin həyata keçirilməsi, xüsusilə nəqliyyat, enerji və kənd təsərrüfatı sahələrində əməkdaşlığın genişləndirilməsi prioritet məsələlərdən biridir. Bundan əlavə, Azərbaycan Türk dünyasının Afrika ilə siyasi, iqtisadi və mədəni əməkdaşlığının dərinləşdirilməsində fəal rol oynayır. Bu əməkdaşlıq təkcə iqtisadi deyil, həm də mədəni sahələrə təsir edərək, Afrika və Türk dünyası arasında tarixi və sosial bağları möhkəmləndirir.

### Neokolonializmə qarşı ardıcıl mübarizə...

Paralel olaraq ölkəmizin neokolonializmə qarşı mübarizədə oynadığı aktiv rol, müstəmləkəçiliyə qarşı fəal addımları yüksək qiymətləndirilir. Ölkəmizin beynəlxalq platformalarda müstəmləkəçilik siyasətinə qarşı açıq mövqe nümayiş etdirməsi Afrikada müsbət qarşılanır. Azərbaycan Afrika dövlətlərinin siyasi və iqtisadi müstəqillik yolunda apardığı mübarizəyə həm diplomatik, həm də humanitar dəstək göstərir. Ölkəmiz beynəlxalq təşkilatlarda Afrikanın hüquqlarını müdafiə etməklə yanaşı, onların iqtisadi inkişafına töhfə vermək üçün investisiya və texniki yardım layihələrində iştirak edir. Bundan əlavə, Azərbaycan Afrika ölkələrinin beynəlxalq təşkilatlardakı səsini gücləndirmək üçün müxtəlif platformalarda onlara dəstək nümayiş etdirir.

### Afrika üçün nümunə olacaq inkişaf modeli

SSRİ-nin dağılmasından sonra Azərbaycanın qısa müddətdə əldə etdiyi nailiyyətlər Afrika ölkələri üçün maraqlı nümunə ola bilər. Neft gəlirlərinin düzgün idarə olunması, infrastrukturun inkişafı, iqtisadi şaxələndirmə və beynəlxalq əməkdaşlıq siyasəti Azərbaycanın uğurlu inkişaf modelini formalaşdırıb. Afrika ölkələri, xüsusilə enerji resurslarına malik olanlar Azərbaycanın bu təcrübəsindən öyrənə bilər və iqtisadi inkişaflarını sürətləndirmək üçün əməkdaşlıq imkanlarından faydalana bilərlər. Bundan başqa, Azərbaycan kənd təsərrüfatı, turizm və texnologiya sahələrində də təcrübəsini bölüşərək Afrika ölkələri üçün yeni imkanlar yarada bilər.

Bir sözlə, Azərbaycan və Afrika ölkələri arasında münasibətlər sürətlə inkişaf edir. Somali Prezidenti Hasan Şeyx Mahmudun fevralın 11-12-də Azərbaycana rəsmi səfər etməsi bu əməkdaşlığın yeni mərhələyə keçdiyini göstərir. Azərbaycan ədalətli və bərabərhüquqlu əməkdaşlıq prinsiplərinə sadiq qalaraq Afrika qitəsi ilə əlaqələrini daha da gücləndirmək niyyətindədir. Bu münasibətlər həm Azərbaycanın beynəlxalq nüfuzunun artmasına, həm də Afrikanın inkişafına töhfə verəcək. Azərbaycanın Afrika ölkələri ilə iqtisadi, siyasi və humanitar sahələrdə əlaqələrini daha da genişləndirməsi qarşılıqlı fayda gətirəcək və uzunmüddətli strateji tərəfdaşlığa zəmin yaradacaq.

*S.İSMAYILZADƏ*

# Paşinyanın Vaşinqton rəzaləti

Məğlub Ermənistanın Baş naziri Nikol Paşinyanın Amerika Birləşmiş Ştatlarına (ABŞ) səfərindən dərhal sonra tələm-tələsik Fransa turnesinə çıxmağı zəruri sayıb. Erməni analitiklər bildirirlər ki, Baş nazir Vaşinqton səfərinin uğursuzluğunu Parisdə Makronla baş tutan görüşün hansısa dividendləri ilə ört-basdır etməyə çalışacaq.

Ancaq belə görünür ki, Vaşinqton səfərinin nəticəsizliyini uzun müddət Emənistan cəmiyyətinin maraq dairəsindən çıxartmaq və tamam unutdurmaq N. Paşinyan üçün asan olmayacaq. Çünki, əvvəlcədən hökumət rəhbərinin Vaşinqton səfəri barədə böyük ajiotaj yaradılmışdı, cəmiyyət Donald Tramp administrasiyasının da Ermənistan rəhbərliyinə rəğbətlə yanaşacağına ümidləndirilmişdi. Səfərin nəticəsizliyi isə bütün ümidlərin əbəs olduğunu ortaya qoydu

## C.Bayden administrasiyasının əziz-xələfi

Əvvəlcə onu qeyd edək ki, rəsmi İrəvan hələ də Ağ Evdə administrasiya dəyişikliyinin yaratdığı məyusluğun təsiri altındadır. Bu da onunla bağlıdır ki, keçmiş administrasiya dönəmində Ermənistan Ağ Evin bir növ əziz-xələfinə çevrilmişdi. Ağ Evin siyasi rəhbərliyinin xüsusi simpatiyası nəzərə alınmaqla ABŞ-ın bütün idarəetmə strukturlarında Ermənistanın istəklərinə "yaşıl işıq" yandırılırdı. Cənubi Qafqazdakı reallıqlar fonunda rəsmi İrəvana açıq-aşkar selektiv yanaşma sərgilənirdi. Erməni lobbisinə bağlı olan parlamentarilərin canfəşanlığı sayəsində Senatda Ermənistanın əsassız müdafiəsini hədəfləyən bir neçə qərəzli qətnamə qəbul olundu. C.Bayden administrasiyası Ermənistanın müxtəlif istiqamətlədə dəstəklənməsi məqsədilə böyük məmnuniyyətlə maliyyə vəsaitləri ayırırdı.

Ötən administrasiya dönəmində Ağ Evin məğlub ölkəni Azərbaycanla yeni müharibəyə təhrik etməsi və bu məqsədlə Ermənistana hərbi dəstəyi gücləndirməsini xüsusi vurğulamaq istərdik. Bayden administrasiyasının göstərişləri əsasında okeanın o tayından İrəvana təyyarə ilə silahlar daşınırdı. Ötən ilin yayında Ermənistanda "Eagle Partner 2024" adlı ikinci Ermənistan-ABŞ birgə təlimləri baş tutdu. Təlimlərə ABŞ-ın Avropa və Afrikadakı ordusunun və Kanzas Milli Qvardiyasının hərbçilərinin də qatılmaları Vaşinqtonun "Eagle Partner 2024"ə nə qədər böyük önəm verdiyinin təsdiqidir. "Eagle Partner 2024" hərbi təlimlərinin keçirilməsi çox doğru olaraq Azərbaycan-Ermənistan münasibətləri kontekstində dəyərləndirilir. Təəssüf doğuran haldır ki, Ermənistanın yeni müharibəyə təhrik edilməsində Bayden administrasiyası məmnuniyyətlə yer alırdı. Elə birgə hərbi təlimlərin keçirilməsinin əsas məqsədlərindən biri də Ermənistanı militarizasiyaya, yeni hərbi kampaniyaya həvəsləndirməkdən, bu ölkədə revanşist meylləri gücləndirməkdən ibarət idi.

C.Bayden administrasiyasının Ermənistana xüsusi simpatiyasını həmçinin USAID-in bu ölkəyə ayırdığı vəsaitlərin həcmini getdikcə artırması bir daha təsdiqləyir. ÜSAID-in hansı çirkin fəaliyyətlərlə məşğul olduğu artıq bütün dünyaya məlumdur. 2024-cü ilin sentyabr ayında qurum Ermənistana beşillik yardım paketini 120 milyon dollardan 250 milyon dollara qədər artırdığını elan edib. Bu yardımların əsas məqsədinin guya Ermənistanda demokratiya və iqtisadiyyatın inkişafına dəstək vermək olduğu, maliyyə vəsaitinin təbii fəlakətlərdən qorunma, kibertəhlükəsizlik, ərzaq və enerji təhlükəsizliyi kimi sahələrə yönəldiləcəyi bildirilirdi. USAID-in Ermənistana ayırdığı maliyyə yardımı ABŞ-ın "Xarici Hərbi Maliyyələşdirmə" proqramı ilə əlaqələndirilirdi. Bundan əlavə, USAID Ermənistanda davam edən insan haqları problemlərinin həlli üçün 2,5 milyon dollar ayıracağının vədini vermişdi. Vəsait guya LGBT fərdlərinin hüquqlarının müdafiəsinə, gender əsaslı zorakılıqla mübarizə və digər tədbirlərə xərclənəcəkdi...



Qoca C.Bayden N.Paşinyan iqtidarına, bütövlükdə Ermənistana son "vəfa borcunu" isə uğurlu olmayan prezidentlik dönəminin son günlərində verdi. Cari il yanvarın 15-də Bayden administrasiyasının səlahiyyətlərinin bitməsinə cəmi 5 gün qalmış Vaşinqtonda ABŞ-ın sabiq dövlət katibi Entoni Blinken və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan arasında strateji tərəfdaşlıq xartiyasının imzalanması özlüyündə çox mətləblərdən xəbər verir. Həmin sənəd uzun müddət müzakirə mərhələsində qalmışdı. Qoca C.Bayden hakimiyyətinin bitməsi ərəfəsində tələm-tələsik xartiyanın imzalanmasını təmin etdi ki, bununla da N.Paşinyan iqtidarına, bütövlükdə Ermənistana son "vəfa borcunu" vermiş oldu.

## Suya düşən ümidlər




Söhbət N.Paşinyanın 5-ci illik Dini Azadlıqlar Sammiti və Milli Dua Səhərində iştirak etmək üçün fevralın əvvəlində okenaın o tayına baş tutan səfərindən gedir. Rəsmi İrəvan Baş nazirin həyat yoldaşı Anna Akopyanın da qatıldığı bu səfərə böyük canfəşanlıqla hazırlaşmışdı. Bütün iqtidar komandası, həmçinin Vaşinqtondakı eməni lobbisi N.Paşinyanın Donald Trampla, ABŞ-nin yeni dövlət katibi Marko Rubio ilə görüşünü təşkil etməyə səfərbər olmuşdu. Ancaq Ağ Evdə N.Paşinyanın adları çəkilən rəsmilərlə görüşmək istəyi birmənalı şəkildə rədd edilib. Eyni zamanda, digər rəsmilər səviyyəsində də Ermənistan lideri ilə görüşə razılıq verilməyib. Baş nazirin uzun-uzadı cəhdlərdən sonra məhdud görüşlərə qatıldığı bildirilir. Əslində, Vaşinqtonda dini sammitə qatılmaq N.Paşinyan üçün əsas məqsəd deyildi. O, bu səfərə getməklə yeni administrasiyanın Ermənistana münasibətdə hansı mövqeni tutduğunu öyrənmək idi. Güman edirik ki, baş nazir bu istəyinə çatıb - yeni administrasiya rəsmilərinin onu qapı arxasında saxlamalarının özü də bir münasibətdir. N.Paşinyan və komandası bundan nəticə çıxartmalıdır.

Yeri gəlmişkən, N.Paşinyanın Vaşinqton fiaskosu Ermənistan cəmiyyətində də rişxənd mövzusuna çevrilib. "Joxovurd" qəzeti yazıb ki, Ermənistan hakimiyyəti bir tərəfdən Apostol kilsəsinə təzyiq edir, digər tərəfdən isə dövlət büdcəsinin vəsaiti hesabına baş nazir ABŞ-da dini tədbirə qatılır. "Baş nazirin bu tədbirdə iştirak etməsi başadüşüləndir. Lakin özünü açıq şəkildə ateist elan etmiş deputat Arsen Torosyanın orada olması ciddi suallar doğurur. A.Torosyan bir vaxtlar açıq şəkildə "Mən ateistəm, sualınız var?" deyərək "İncil"i sadəcə bir kitab adlandırmış və onu Şarl Perronun nağılları ilə müqayisə etmişdi. Bəs A.Torosyan hansı məntiqə əsasən dini tədbirdə iştirak etmək üçün Vaşinqtona göndərilib? Bu, inanclı insanlara istehza, ABŞ-a hörmətsizlik, yoxsa öz prinsiplərinə zidd davranışdır?", - deyə nəşr sual edib.

Baş nazir N.Paşinyanın Vaşinqtona səfərini şərh edən erməni politoloq Artur Xaçikyan isə nə D.Trampın, nə də M.Rubionun Paşinyanla görüşə vaxt ayırmaq istəmədiklərinə diqqət çəkib. Sitat: "Hakimiyyət diplomatiyanın nə olduğunu başa düşmür, bütün ümidlərini Baydenə bağladılar və yeni administrasiyada təsirsiz qaldılar. Heç kim onunla görüşməyib. Baxın, biz Amerika ilə strateji müqavilə imzaladıq, amma bundan heç nə çıxmadı, liderimizlə belə görüşmədilər..."

***Mübariz FEYİZLİ***

**Kral Abdullahın ABŞ-a səfəri nəyə hesablanıb**

# Qəzzada münaqişə yenidən alovlana bilər

Qəzzadakı mövcud situasiya müharibənin yenidən başlanmasına rəvac verir. Son günlər İsrail ilə HƏMAS arasında əsirlərin mübadiləsinin dayandırılması gərginliyi artırır. Hər iki tərəf bir-birini razılaşmanı pozmaqda ittiham edərək bir-birinə qarşı müxtəlif şərtlər irəli sürür. HƏMAS rəhbərliyi İsrail tərəfindən razılaşmanın "pozulmasına" görə təzminat ödəməyi tələb edir və yalnız şərtinin yerinə yetiriləcəyi təqdirdə israilli girovları azad edəcəyini bildirib.

## Şənbə günü günortaya qədər...

Xatırladaq ki, ABŞ, Misir və Qətərin vasitəçiliyi ilə uzunmüddətli danışıqlar nəticəsində yanvarın 16-da İsrail ilə HƏMAS arasında atəşkəs sazişi əldə olundu. Saziş yanvarın 19-da qüvvəyə mindikdən sonra Qəzzada bütün hərbi əməliyyatlar dayandırıldı. Üç mərhələdən ibarət olan sazişin müddəalarına görə, müəyyən müddət ərzində İsrail qoşunları bölgənin sıx məskunlaşmış ərazilərindən geri çəkilməli və məcburi köçkünlərin geri qayıdışı təmin olunmalı, paralel olaraq, girovlar və əsirlər qarşılıqlı şəkildə azad edilməli və humanitar yaradıma əngəl törədilməməlidir.

Artıq vəziyyət daha da gərginləşərək pik nöqtəyə çatır, İsrailin baş naziri Benyamin Netanyahu HƏMAS-a xəbərdarlıq edib ki, fevralın 15-i günortaya qədər israilli girovların azad edilməyəcəyi təqdirdə İsrail Silahlı Qüvvələri Qəzzada intensiv döyüşləri bərpa edəcək.

"Mənim qəbul etdiyim və Nazirlər Kabinetinin yekdilliklə təsdiqlədiyi qərar belədir: HƏMAS şənbə günü günortaya qədər girovlarımızı qaytarmasa, atəşkəs ləğv ediləcək və İsrail ordusu HƏMAS-ın tam məğlubiyyətinə qədər intensiv döyüşləri davam etdirəcək", - deyə Netanyu bildirib ki, İsrail HƏMAS hərəkatını məhv edəcək və radikalların Qəzza zolağında saxladığı bütün əsirləri geri qaytaracaq.

Eyni zamanda, qeyd etmək lazımdır ki, Netanyahunun xəbərdarlığından əvvəl İsrail Nazirlər Kabinetinin rəsmisi David Menser və ölkənin müdafiə naziri İsrail Katz HƏMAS-a girovların qaytarılmayacağı halda Qəzzada hərbi əməliyyatların yenidən başlayacağı ilə bağlı xəbərdarlıq edib.



İsrailin Xarici İşlər Nazirliyi də avropalı diplomatlara bildirib ki, HƏMAS girovları azad etməsə, İsrail Qəzzada müharibəni yenidən aktiv fazaya keçirəcək.

Bu arada ABŞ Prezidenti Donald Tramp da HƏMAS-a açıq şəkildə xəbərdarlıq edib - o, bildirib ki, İsrailin şərtləri əməl olunmazsa, bütün razılaşmalar ləğv olunucaq və bölgəni böyük fəlakət gözləyəcək.

## Qarşı tərəfin reaksiyası

Qəzzada vəziyyətin getdikcə gərginləşdiyini bildirən HƏMAS-ın Siyasi Bürosunun üzvü Basem Naimin sözlərinə görə, İsrail və HƏMAS arasında atəşkəs razılaşması pozulmaq təhlükəsi ilə üz-üzədir. İsrailin xəbərdarlığına səssiz qalmayan HƏMAS-ın nümayəndələri bəyan edirlər ki, İsrail və ABŞ-ın Qəzza ilə bağlı planları baş tutmayacaq və lazım gələrsə, axıra qədər mübarizə aparacaqlar və islam dünyası onların arxasındadır: "İnsanlarımızı Qəzzadan çıxarmaq planı baş tutmayacaq. Bu plan Ərəb və İslam dünyasının rədd edəcəyi vahid mövqe ilə qarşılaşacaq."

İsrail və ABŞ-ın xəbərdarlığı fonunda Yəməndəki "Ənsurullah" hərəkatı - Husilər də məsələyə münasibət bildirib - təşkilat İsraili Qəzzada döyüşlərin bərpa olunacağı halda yenidən onun ərazisinə raket hücumları təşkil edəcəyi ilə hədələyib.

"Barmağımız tətikdədir və düşmən İsrail Qəzza zolağına qarşı təcavüzü bərpa edərsə, onlara dərhal cavab verməyə hazırıq,"- deyə hərəkatın bəyanatında qeyd olunur.



## Ərəb dünyası təşviş içində

Qəzzada vəziyyətin gərginləşdiyi bir zamanda İordaniya kralı ikinci Abdullah bin Əl-Hüseynin ABŞ-a rəsmi səfəri və prezident Donald Trampla görüşü diqqətdən kənar saxlanıla bilməz. Vurğulayaq ki, Trampın Netanyahu ilə Ağ Evdə birgə mətbuat konfransında, hətta bundan əvvəlki çıxışlarında Qəzzada yerli əhalinin tamamilə Misirə və İordaniyaya köçürülməsi və bölgənin ABŞ-ın nəzarətinə verilməsi ilə bağlı təklifi Misir və İordaniya hakimiyyəti, o cümlədən bir sıra ərəb ölkələri tərəfindən birmənalı qarşılanmayıb. Misir və İordaniyanın rəhbərləri buna imkan verməyəcəklərini bəyan ediblər.

Kral Abdullah Ağ Evdə ABŞ prezidenti Donald Trampla görüşündən sonra özünün "X" səhifəsində yazıb ki, o, Trampa İordaniyanın fələstinlilərin Qəzza və İordan çayının qərb sahilindən köçürülməsi təklifinə qarşı çıxmaqda davam edəcək.

"Bu, ərəb ölkələrinin ortaq mövqeyidir. Hər kəs üçün prioritet Qəzzanın sakinlərini köçürmədən yenidən qurulması, eləcə də zolaqdakı çətin humanitar vəziyyətin həllidir," - deyə kral Abdullah regionda hamı üçün ədalətli və hərtərəfli sülhə nail olmaq üçün birgə fəaliyyətin zəruriliyini vurğulayıb.

***Yunis ABDULLAYEV***

# "Yaşamaq olarmı inanmasan"...




## Böyük Vedidən köçürüləndə mənim beş yaşım olub...

### Yazıçı Məmməd Orucla müsahibə

*Havar Şəfiyeva*

**- Məmməd müəllim, yaradıcılığınız nə yerdədir, yeni nə yazırsınız?**



- "525-ci qəzet"də ara-sıra çap olunan məqalələrimi çıxmaq şərtilə, demək olar ki, heç nə yazmıram. Amma hər hansı bir mövzu məni tərpətsə, yazmağa gücüm çatar. Bilirsiniz, mən mövzu axtarmıram, amma mövzu özü gəlib məni tapanda və görəndə ki, yazmaqdan başqa yol yoxdur, bax, onda yazıram.

**-Sonuncu əsəriniz, səhv etmirəmsə, "Azərbaycan" jurnalında, sonra da kitab halında çap olunan "Naməlum Fikrət Qoca" povestidir?**

- Siz onu povest adlandırırsınızsa, çox sağ olun, əslində, o yazı xatirələr toplusudur. Sənədli xatirələr toplusu. Yeri gəlmişkən, mənə elə gəlir ki, sənədli yazılar, ümumiyyətlə, bədii ədəbiyyatı çox üstələyib. "Bədii ədəbiyyat öz ömrünü bitirib" deməyə isə dilim gəlmir... Mərhum qələm dostum və tərcüməçi həmkarım Səyavuş Məmmədzadə ömrünün son illərində qəti olaraq bu fikrə gəlmişdi...

**-Səyavuş Məmmədzadə ilə münasibətlərinizin kökündə nə dururdu?**

-Səyavuşun təbirincə söyləsək, sadəcə, ünsiyyət. O, çox savadlı ziyalı idi...

**- Bildiyimə görə, cağdaş rus şairi Dmitri Mizqulinin "Şam" kitabını da birlikdə tərcümə etmisiniz?**

- Hə, rus dilindən tərcümə sahəsində bizim bir neçə dəfə belə layihələrimiz olub. Çağdaş Rusiya ədəbiyyatından tərcümələr etmişik. Rus nasirlərindən Yeremey Aypinin, Sergey Kozlovun bir neçə əsərini birlikdə tərcümə etmişik.

**- Amma siz ötən əsrin səksəninci illərində Vasili Belovun yaradıcılığına tərcüməçi kimi müraciət eləyəndə, bəlkə də Səyavuş müəllimlə tanış deyildiniz?**

-Yadımda deyil, amma onu xatırlayıram ki, məni Vasili Belovun əsərlərini tərcümə etməyə unudulmaz dostum Natiq Səfərov həvəsləndirmişdi. Həm də o zaman tərcüməyə yaxşı qonorar verirdilər, hətta o dövrdə heç yerdə işləmədən qonorarla dolanan yazıçılar var idi...

**-Yeri gəlmişkən, hazırda ədəbi əsərlərə verilən qonorarla razısınızmı?**

- Əlbəttə, yox, bu günün yazıçıları, tərcüməçilər fədakarlardı. Onlar bilə-bilə ki, yazılarına, tərcümələrinə qonorar almayacaqlar, yenə də tərcümə eləyirlər.

**- Sizcə, belələri çoxdurmu?**

- Hər halda var, az deyil.

**- Kimləri deyə bilərsiniz?**

- Məsələn, onlardan Azad



Yaşarın adını çəkə bilərəm. Bilirəm ki, o, "Azərbaycan" jurnalında çap olunan tərcümələrinə görə sovet dövründə verilən qonorarla müqayisədə hazırda on dəfə az qonarar alır, amma yenə də qələmini yerə qoymur. Xatirimdədir, Səyavuş müəllim də tərcümə sahəsində Azad kimi işgüzar idi, yorulmaq bilmirdi.



**- Səyavuş müəllimlə ünsiyyətinizin səbəbləri məlumdur. Bəs xalq şairi Fikrət Qoca ilə sizi nə bağlayırdı?**

- Biz Fikrətlə otuz il birlikdə ova getmişik, yoldaş olmuşuq. Əsil yoldaş harda tanınar? Əlbəttə ki, yolda.

**- Qərbi Azərbaycanlıların taleyi ilə bağlı trilogiya ("Köçürülmə", "Qara güzgü", "Qısa qapanma" romanları) ərsəyə gətirmisiniz. Bu ədəbi əsərləri o dövrdə nəşriyyat necə qarşılamışdı? Maraqlı məqamlara rast gəlmişdinizmi?**

- Mən "Köçürülmə"ni sovet dövründə yazmışam, elə bir zamanda ki, çap olunacağına gümanım çox az idi. Amma elə həmin ərəfədə Bakıda "Karvan" adlı yeni bir ədəbiyyat dərgisi açıldı. Bu nəşr təxmini o dövrdəki sovet ədəbi quruluşunda populyarlıq qazanmış "Roman qazeta" tipli bir ədəbi orqan idi. Qərara gəldim ki, romanı elə bu dərgiyə təqdim edəcəm. "Köçürülmə", "Karvan"ın rəsmi maneələrini (peşəkar rəyçilərin qeydlərini nəzərdə tuturam) aşaraq yüksək tirajla yayımlanan həmin jurnalda çap olundu. Daha sonra isə mən bu əsəri kitab halında nəşr etmək üçün "Gənclik" nəşriyyatına müraciət etdim. Nəşriyyatda Baş redaktor məni elə gözləmə otağında sevindirdi, Hidayət müəlllim xoş bir görkəmdə məni qarşılayaraq "biz "Köçürülmə"ni artıq plana salmışıq, narahat olma" - dedi.

"Qara güzgü" ilə "Qısa qapanma"nı isə son illərdə yazmışam. "Qara güzgü"nü "Köçürülmə"nin əvvəli, "Qısa qapanma"nı isə sonluğu kimi nəzərdə tutmuşam. Bu əsərləri akademik Nizami Cəfərovun təqdimatı ilə "Azərbaycan" jurnalında nəşr etdirsəm də, umduğum nəşriyyatların da biganəliyini sezəndən sonra doğmalarımın taleyi ilə birbaşa bağlı olan bu əsərləri öz vəsaitimlə nəşr etdirmək qərarına gəldim. 70 yaşım tamam olanda "Natəvan" ədəbi klubunda kitablarımı oxucularıma təqdim etdim. Ancaq bir müddət keçəndən sonra "Qısa qapanma"nı nəşr etmək üçün bir müştəri çıxdı. Bu, "Mücrü" nəşriyyatı idi.

**- Sonra "Qısa qapanma" Ukraynada da çap olundu.**

- Bəli, bu, birbaşa Xalq yazıçısı Elmira Axundovanın xidməti sayəsində mümkün oldu.

**- Elmira xanımla əməkdaşlığınız əvvəllər olmuşdumu?**

- Əlbəttə. Onun Heydər Əliyevlə bağlı bəzi kitablarının redaktəsi mənə aiddir, hətta bir kitabın tərcüməsini də mən etmişəm.



**- Bildiyimizə görə, "Köçürülmə" əsəriniz 2024-cü ildə teatrda tamaşaya qoyulmalı idi...**

- Doğrudur, keçən il Bakı Bələdiyyə Teatrının belə bir planı var idi. Mən baş rejissorun bu təklifinə də müsbət yanaşdım. Mənə elə gəlir ki, bu məsələdə çox şey Mərahim Fərzəlibəyovdan asılıdır. Umidvaram ki, tamaşa bu il səhnəyə qoyular.

**- Sizin "Təbriz almaları", "Nərdivan", "Yeddi dağdan o yana" kimi pyesləriniz Akademik Dövlət Dram teatrlarında oynanılıb. Sizcə, indi bu pyeslərin yada düşməməsinin səbəbi nədir?**

- Nə deyim, yəqin ki, günün tələblərinə cavab vermir. Mən vaxtilə o pyesləri Mədəniyyət Nazirliyinin sifarişi ilə qələmə almışdım. Etiraf edim ki, qonarar xatirinə.

**- Bir dəfə gənc vaxtlarında Səməd Vurğun olmaq istədiyinizi də dilə gətirmişdiniz.**

- Hə... Yeniyetmə çağlarında belə bir duyğu yaşamışdım və sonralar da bunu dilə gətirmişdim. Bu günün özündə belə hansı gənc Səməd Vurğun kimi bir şair olmaq istəməz? Görəsən, elə bir azərbaycanlı varmı ki, Səməd Vurğunun "Azərbaycan" şerinin heç olmasa iki-üç bəndini, sətrini əzbər bilməsin? Axı, bu şeirin, və eləcə də şairin yüzlərlə mənzum əsərinin heç bir siyasətə-filiana dəxli yoxdur.

**- Son vaxtlar gündəmi zəbt edən bir mövzu var, Əlisa Nicatın Səməd Vurğunu " yaltaq" adlandırmasına mövqeyiniz necədir?**

- Sözün bu yerində belə bir atalar sözü yadıma düşür, "dəliyə yer ver, əlinə bel ver". İndi, məncə, günah Əlisanın əlinə bel, yəni meydan verənlərdədir, Əlisa özgə nə deyə bilər ki? Məncə, Səməd Vurğunun ünvanına nalayiq bir ifadə işlətmək 70 illik sovet tariximizdən imtina deməkdir? Bu mümkündürmü? Axı, o dövrdə hansı ziyalı sovet ideologiyasına qucaq açmayıb? Əlbəttə, istisnalar təbiidir. Amma Səməd Vurğundan söhbət gedirsə, demək söz hə xalqın ünvanına deyilir.

**- Sizcə, Azərbaycan yazıçıları niyə dünya auditoriyasına çıxa bilmirlər?**

- Həqiqətən, çətin sualdır, amma cavab verməyə çalışacam. Dünyaya çıxmaq üçün gərək öz dünyandan imtina eləyəsən. Məsələn, Nobel mükafatı Orxan Pamuk kimi... Öz xalqının əleyhinə yazasan, Paulo Kuelyo kimi pornoqrafik hekayələr uydurasan və s. Son illər belə yazarlar daha çox Asiya ölkələrində - Çində, Əfqanıstanda meydana gəlir, amma nə bilmək olar, bəlkə növbə bizə də çatacaq? ... İnternet onsuz da bütün dünyanı bir ocaq başına yığıb...

**- "Kulis.az"da ara-sıra barənizdə gənclərin yazıları dərc olunur. Sizcə, gənc yazarların sizə qarşı rəğbəti nə ilə bağlıdır ?**

- Mən özüm də belələrinə rast gəlmişəm. Məncə, bunu o gənclərin özündən soruşmaq lazımdır. Sezmişəm ki, onların əksəriyyətini qane eləyən lirik təhkiyədir, yazı üslubudur. Mən bir qayda olaraq, əlimə qələm alandan öz acılarımı, nisgillərimi yazmışam və məncə elə o müstəvidə də oxucu ilə yollarımız kəsişib. Belə görünür ki, hələ də kəsişəcək.

**- Məncə "Köçürülmə" də, bu qəbildən olan əsərlərinizdən biridir. Orada təsvir olunan hadisələri necə, yaşamısınızmı?**

- 1951-ci ilin payızında Böyük Vedidən köçürüləndə mənim beş yaşım olub... Bütün köç prosesi indi də gözlərimin önündədir...

**- Qayıdışa münasibətiniz necədir?**

- Əlbəttə, nikbin! Çox çəkməz, MDB məkanında olduğu kimi, Qafqaz ölkələri arasında da gediş- gəliş vizasız olacaq. Mən o zaman mütləq doğma yerlərə gedəcəyəm. Gecələr Vedi çayının səsi bizim evimizdə eşidilirdi və o səs hələ də mənim beynimdədir.

**- Sizin nikbinliyiniz insanı sevindirir...**

- Səməd Vurğunun müasiri olan xalq şairi Rəsul Rzanın belə bir misrası yadıma düşür; dənizlər üzərindən körpülər atılacaq, sərhəd dirəklərindən yollar çəkiləcək. İnan buna oğlum, qızım, insan...Yaşamaq olarmı inanmasan?

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Millətin Bəxtiyarı...

## Xalq şairinin anım günüdür!



*Yeganə BAYRAMOVA*

Hər insan sirli-sehirli bir aləm, yazılmamış bir kitabdır. Yaradıcı insanın könül dünyası isə daha cazibədar, coşğun, üfüqləri daha geniş, zəngin və əlçatmaz olur. Xalq şairi Bəxtiyar Vahabzadə də həmin yaradıcı insanlardandır.

**Milli şeirimizin canlı klassiki**

Bəxtiyar Vahabzadə özünün çoxşaxəli yaradıcılığı ilə Azərbaycan ədəbiyyatının inkişafına mühüm töhfələr verən, bu istiqamətdə müstəsna xidmətləri olan aparıcı sənətkarlardan biri idi. Onu haqlı olaraq çağdaş milli şeirimizin canlı klassiki adlandırırlar. Əlbəttə, şairin poetik istedadına verilən belə dəyər təsadüfi deyil, əksinə bunun obyektiv səbəbləri var. Azərbaycan şeirinin son yarım əsirlik tarixi təkamül prosesini Bəxtiyar Vahabzadə yaradıcılığı olmadan təsəvvür etmək mümkün deyil. Azərbaycan ədəbiyyatında, ictimai fikir tariximizdə müstəsna rol oynayan B.Vahabzadə özündən sonra böyük bir irs qoyub. Həm şair, həm alim, həm də ictimai xadim kimi Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin inkişafına bənzərsiz töhfə verib.

Daha tərk edirəm mən bu şəhəri,
Son dəfə geriyə baxıb gedirəm..
Unudub qüssəni qəmi kədəri,
Mən çox uzaqlara çıxıb gedirəm...

Gedirəm yağışla, boranla, qarla,
Mən qayıtmayacam gələn baharla,
Bəlkə də verdiyim bu, son qərarla
Özüm öz evimi yıxıb gedirəm,
Mən çox uzaqlara cıxıb gedirəm...

Sənlə yox, rəsminlə qucaqlaşaraq
Göz yaşı tökürəm, uşaqlaşaraq
Sevgilim, səndən də uzaqlaşaraq
Coşqun bir çay kimi axıb gedirəm
Mən çox uzaqlara cıxıb gedirəm...

duyğularım,
Bəxtiyar Vahabzadə

**Şairin yaradıcılıq yolu**

Bəxtiyar Vahabzadə bədii yaradıcılığa 1943-cü ildə “Ana və şəkil” adlı ilk şerini çap etdirdikdən sonra başlayıb. Onun “Mənim dostlarım” adlı ilk kitabında toplanmış lirik şeirlərdə faşizmə qarşı mübarizədə qalib çıxmış xalqın duyğu və düşüncələri öz əksini tapıb.

O, Azərbaycan Dövlət Universitetində Müasir Azərbaycan ədəbiyyatı kafedrasının professoru vəzifəsində çalışıb (1950-1990). Bəxtiyar Vahabzadə 1980-ci ildə Azərbaycan MEA-nın müxbir üzvü, 2000-ci ildə isə həqiqi üzvü seçilib. 1981-ci ildə SSRİ Yazıçılarının VII qurultayında SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin üzvü seçilib. Şair 1976-cı ildə “Muğam” poemasına görə Azərbaycan Dövlət mükafatına layiq görülüb.

**Poemasına görə “millətçi” damğası aldı...**

Bəxtiyar Vahabzadə 1960-cı illərdən başlayan milli azadlıq hərəkatının öncüllərindən biri idi. O, 1959-cu ildə yazdığı “Gülüstan” poeması ilə iki yerə parçalanmış Azərbaycanın tarixi faciəsini dilə gətirib, rus və fars imperiyasının pəncəsi altında inləyən Azərbaycan xalqının azadlıq və istiqlal uğrundakı ədalətli mübarizəsinə qoşulub. Bu poemaya görə 1962-ci ildə şair “millətçi” damğası ilə Azərbaycan Dövlət Universitetindən çıxarılmış, yalnız 2 ildən sonra öz vəzifəsinə bərpa edilib.

Bəxtiyar Vahabzadə 70-dən artıq şeir kitabının, 2 monoqrafiyanın, 11 elmi publisistik kitabın və yüzlərlə məqalənin, eləcə də tarixi və müasir mövzuda 20-dən artıq iri həcmli poemanın müəllifidir. Şairin əsərləri - şeir kitabları, dramları və publisistik yazıları dünyanın bir çox dillərinə, o cümlədən ingilis, fransız, alman, fars, türk, polyak, ispan, macar, keçmiş Sovetlər Birliyi xalqlarının dillərinə tərcümə edilib.

**Ana dilimizin qorunması uğrunda...**

Bəxtiyar Vahabzadə həqiqətən də xalqın şairi idi. O zamanın nəbzini tuta bilən, xalqın dərdinə, sevincinə şərik olan bir insan olub. Şair Azərbaycan dilini zəngin və imkanlı bir dil kimi səciyyələndirirdi. Görkəmli sənətkar ana dilinin təmizliyi və gözəlliyinin qorunması məsələsini ümumxalq işi, dövlət işi hesab edib, belə söyləmişdi: “Dil xalqındır. Ona görə də dilin gözəlliyi keşiyində yalnız alim və yazıçılar, filoloq və jurnalistlər deyil, bütün xalq durmalıdır. Bu hər birimizin vətəndaşlıq borcudur. Bu ümumxalq işi, dövlət işidir. Ata-babalarımızdan miras aldığımız ana dilimizi göz bəbəyimiz kimi qorumaq, onu cilalaya-cilalaya, öz dadı-tamı və təmizliyi ilə gələcək nəsillərə təhvil vermək müqəddəs borcumuzdur”.

Ədəbiyyat, ictimai fikir tariximizdə böyük azərbaycançılardan biri kimi qalan Bəxtiyar Vahabzadə azərbaycançılığın ən qüdrətli nümayəndələrindən biri olaraq xatırlanacaq. Onun yaratdığı külliyyat azərbaycançılıq məfkurəsinə ən dəyərli töhfədir. Bu gün B.Vahabzadənin vəfat etməsindən 16 il ötür. Xalq şairi 2009-cu il fevral ayının 13-də, 84 yaşında uzun sürən xəstəlikdən sonra Bakıda vəfat edib. Bəxtiyar Vahabzadə həyatla vidalaşmış olsa da, hər bir Azərbaycan vətəndaşı sevimli şairini öz ürəyində yaşadacaq...

# Qanunlara dəyişiklik edildi...

## Peşə təhsili sahəsində güzəştlər tətbiq olunacaq!

*Yeganə BAYRAMOVA*

Ötən gün Milli Məclisin Elm və təhsil komitəsinin iclası keçirilib. Sözügedən iclasda bir sıra mühüm məqamlara toxunulub.

Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev bildirib ki, ilkin hesablamalara görə, işğaldan azad edilən ərazilərdə məskunlaşması nəzərdə tutulan azı 3000 nəfər şəxsin peşə təhsili üzrə cəmi təhsil haqqı xərcləri təqribi 3,5 milyon manat təşkil edəcək.

A.Vəliyev qeyd edib ki, təhsil haqlarının dövlət vəsaiti hesabına ödənilməsinin “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın qüvvədə olduğu müddətdə həyata keçirilməsi nəzərdə tutulur.

**Bu tələbələrin təhsil haqqını dövlət ödəyəcək**

Azərbaycanda təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilən şəxslərin siyahısı genişləndirilir. Bununla bağlı “Təhsil haqqında” və “Peşə təhsili haqqında” qanunlara dəyişikliklər təklif olunub.




İclasda müzakirəyə çıxarılan layihəyə əsasən, təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilən şəxslər sırasına işğaldan azad edilən ərazilərdə məskunlaşan və 2025/2026, 2026/2027, 2027/2028-ci tədris illərində dövlət, bələdiyyə və özəl peşə təhsili müəssisələrinə qəbul olunmuş, habelə həmin təhsil müəssisələrində təhsil almaqda olan şəxslər də daxil edilir.

Qüvvədə olan qanunvericiliyə əsasən işğaldan azad edilən ərazilərdə məskunlaşması nəzərdə tutulan əhaliyə münasibətdə peşə təhsili üzrə təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsinə dair hər hansı normativ tənzimləmə mövcud deyil.

Qeyd olunub ki, layihənin qəbulu nəticəsində işğaldan azad edilmiş ərazilərində məskunlaşmış Azərbaycan vətəndaşlarının təhsil haqlarının dövlət büdcəsi hesabına maliyyələşdirilməsini təmin edən hüquqi mexanizm formalaşdırılmış olacaq.

**STEAM tətbiqinin genişləndirilməsi nəzərdə tutulur**

Bu günlərdə elm və təhsil sahəsi üçün mühüm olan başqa bir tədbir də baş tutub. Azad olunan ərazilərdə STEAM layihəsinin tətbiqinin genişləndirilməsi nəzərdə tutulur. “STEAM Azərbaycan” layihəsinin rəhbəri İqrar Nəzərov fevralın 1-dən etibarən Şuşada 1 nömrəli məktəbin tərkibində STEAM layihəsinin tətbiqinə başlanıldığını da qeyd edib.

O, xatırladıb ki, 2024-2025-ci tədris ilində STEAM Azərbaycan layihəsi 398 məktəbi, 252 min 711 şagirdi əhatə edib: “STEAM təhsili alan şagirdlərin 47 faizi qız, 53-ü isə oğlandır. Bundan başqa, 21 STEAM mərkəzi, bir STEAM İnnovasiya mərkəzi fəaliyyət göstərir”.

Layihə rəhbəri STEAM çərçivəsində qadınların rolundan da söz açıb: “Məqsədimiz qadınların elmi innovativ təşviqi prosesinin gücləndirilməsidir. Beynəlxalq STEAM Azərbaycan festivalında 352 qadın iştirakçımız olmuşdu. Bu da qadınların elmdə rolunun nə qədər böyük olduğundan xəbər verir”.

**Ən böyük hədəflərimizdən biri bu olmalıdır...**

Elm və Təhsil Nazirliyinin əməkdaşı Ayla Həsənova bildirib ki, gələn ilə qədər ölkə üzrə bütün məktəbli qızların STEAM layihəsinə cəlb olunması əsas hədəflərdəndir. Onun sözlərinə görə, növbəti illərdə həmçinin cinsi ayrı-seçkiliyə yol verilməməsinə də xüsusi önəm veriləcək: “Məktəblilərin STEAM yanaşmalı bilik, bacarıqlarının artırılması əsas vəzifələrimizdəndir”.

“Azərbaycan Qadınları Elmdə” təşkilatının təsisçisi Günel Ağabəyli isə tədbirin əsas məqsədindən danışıb: “Qızları və gənc qadınları elmi sahələrə təşviq etmək bizim ən böyük hədəflərimizdən biri olmalıdır. Onların uğurlarını vurğulamaqdan çəkinməməliyik. Elm və Təhsil Nazirliyi üçün qadınların elmi sahələrinə cəlb olunması ümumi məlumatlılığın artırılması prioritet məsələlərdəndir. Hesab edirəm ki, ölkədə qadınların təhsildə irəliləməsi üçün hər cür şərait yaradılır”.

Tədbir çərçivəsində xüsusi hazırlanan videoçarx nümayiş etdirilib. Tədbirin növbəti hissəsi təlim sessiyasından ibarət olub.

Ekspert Kamran Qasımovun rəhbərlik etdiyi “Keçmişdən gələcəyə: qadınların innovasiyada rolu” adlı interaktiv qrup işində iştirakçılar qadınların elm və texnologiyada keçmiş və indiki dövrdəki töhfələrini təhlil edilib.

Sonda isə STEAM İnnovasiya Mərkəzinə təşkil edilən ekskursiya çərçivəsində gənclər müxtəlif elmi və innovativ layihələrlə tanış olublar.


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması” istiqaməti üzrə hazırlanmışdır**


# Dilimizin təbliğat tribunası...

## Dünya Radio Günüdür



*Yeganə BAYRAMOVA*

Radio nüfuzlu və kütləvi media yayımı vasitələrindən biridir. Bu kütləvi informasiya vasitəsi bir əsrdən artıqdır ki, insanların məişətinə daxil olmaqla bərabər, onların həyat tərzində mühüm rol oynayır. Eyni zamanda, radio bir rabitə sistemi kimi fövqəladə hallarda geniş və əvəzsiz imkanlara malikdir. Bundan başqa, radio həm də dilimizin təbliğat tribunasıdır. Elektron mediumlar arasında ən köhnəsi olan radionun - “qulaq dostumuzun” yaranmasının uzun bir tarixi var. Hazırda gördüyümüz, daha doğrusu, dinlədiyimiz radionun ərsəyə gəlməsi 1894-cü ilə gedib çıxır.

Bu gün Dünya Radio Günüdür. Bu günün təsis edilməsi barədə qərar UNESCO-ya üzv dövlətlər tərəfindən 2011-ci ildə qəbul olunub. 2012-ci ildə Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası fevralın 13-nü Dünya Radio Günü elan edib. Həmin tarixin seçilməsi təsadüfi deyil. Belə ki, 1946-cı il fevralın 13-də BMT-nin mənzil-qərargahında BMT radiosu ilk dəfə efirə çıxıb.

Radio təkcə texniki vasitə kimi deyil, eyni zamanda, demokratik müzakirənin formalaşması və möhkəmlənməsinin baş verdiyi informasiya məkanıdır. Bu gün bütün radio dinləyiciləri, audiovizual mütəxəssislər və yayımçılar təkcə radionun xüsusiyyətlərinə hörmətlə yanaşmağa deyil, həm də onun sülhü təşviq etmək üçün unikal alətə çevrilməsinə töhfə verməyə dəvət edilir.

**Radio necə yaranıb?**

Radionun tarix meydanına çıxması üçün səsin yazılıb-yenidən canlandırılması, bundan daha önəmlisi isə fəzada mövcud olan elektromaqnit dalğalarının tapılıb bəşəriyyətin ixtiyarına verilməsi zəruri idi. Səsyazmanın tarixi 13-cü əsrdə-Almaniyada qraf “Böyük Albert”lə başlasa da, sonralar Fransa (J.Dyuqamel və L.Skot), Böyük Britaniya (T.Yunq) və Rusiyada (A.Krotsenşteyn) davam etdirilsə də proses 19-cu əsrdə ABŞ-da sona çatdı. Məşhur ixtiraçı T. Edison davamlı sınaqlardan sonra 1877-ci ilin dekabrında düzəltdiyi fonoqrafın qarşısında həyəcanla “Meri və onun körpə quzusu” adlı uşaq şeirini söyləyir. Bir dəqiqədən sonra ixtiraçının köməkçisi C.Krues heyrət içində aparatın həmin şeiri anlaşılmaz şəkildə təkrar etdiyini eşidir. Beləliklə, səsin dəqiq yazılması və onun yenidən eşidilməsi kəşf olunur, lakin bu, radionun kəşfi demək deyildi. Bundan əvvəl teleqrafın (1837), Morze əlifbasının (1843), telefonun (1876) və səsin telefonla ötürülməsinin (1880) kəşfi də hələ radionun ixtirasını yaxınlaşdırmırdı. Bunun üçün fəzadakı elektromaqnit dalğaları kəşf olunmalı, bu dalğaların axını insanın iradə və istəyinə tabe edilməli, məlumatı naqilsiz, yəni elektromaqnit dalğaları ilə uzağa ötürmək üsulu meydana çıxmalı idi.

**Kəşf kimindir: Markoni, yoxsa Popov?**

Radionun kəşfi 1894-cü ildə italiyalı mühəndis, radiotexnik Qulyelmo Markoniyə nəsib olur. Uzaq məsafəyə hava dalğaları ilə simsiz xəbər göndərmək marağını təmin etmək üçün Boloniyadakı evinin damında inadla təcrübələr aparan ixtiraçı nəhayət, öz istəyinə çatır.

Markoni hələ məktəbliykən beynindən çoxlu ixtiralar etmək istəyi keçirdi. 20 yaşında olarkən elektromaqnit dalğaları haqqında oxuduğu bir yazı onu çox cəlb etdiyindən gənc mühəndis eksperimentlərə başladı. O, xəyali olanları praktikada tətbiq etmək qərarına gəldi. Markoninin valideynləri övladlarının çox xərc aparan eksperimentləri üçün pullarını əsirgəmədilər. Maraq, bilik və praktik bacarıq 20 yaşlı bu gənci bütün Avropada məşhurlaşdırdı. İtaliyada yaşayan Markoni 21 yaşında İngiltərəyə köçdü və orada naqilsiz rabitə şirkəti yaratdı.

Q.Markoni ilə təxminən eyni vaxtda, 1895-ci ildə rus mühəndisi Aleksandr Popov da elektromaqnit dalğalarını kəşf etmiş və onun tapıntısı dərhal təcrübədə sınaqdan keçirilmişdi. Elektromaqnit dalğaların mövcudluğunu göstərməyin daha həssas və etibarlı üsulunu tapan A.Popov bu dalğaları bilavasitə qeydə alan “Kogerer” adlı ölçü cihazı da düzəltmişdi. 1900-cü ilin sərt qışında Finlandiyada - Lavensaari gölündə qəzaya uğramış balıqçıların xilas edilməsində A.Popovun təklif etdiyi bu cihaz radioteleqraf kimi mühüm rol oynadı və bundan sonra rus mühəndisinin ixtirasına diqqət xeyli artdı. Son dövrlərdə, yəni dünya elmi ilə təmaslar artdıqca, o cümlədən radionun tarixi ilə bağlı dəqiq bilgilər çoxaldıqca Rusiya alimləri yanlış olaraq “radionu kim kəşf edib? Markoni, yoxsa Popov?” dilemmasını ortaya atmağa çalışırlar. Əlbəttə, radionun inkişafında A.Popovun xidmətləri danılmazdır. Amma dünya radionun banisi kimi Markonini tanıyır. Amma yaxşıdır ki, bu sahədə A.Popovun ixtiraları da danılmır. Məsələn, son dövrün bir çox sorğu kitablarının səhifələrində Markoni və Papov “barışdırılır”.

## *İdman*

# Türkiyə Açıq turnirində bürünc medal




Azərbaycanın qadın taekvondoçusu Minayə Əkbərova Antalya şəhərində keçirilən Türkiyə Açıq beynəlxalq turnirində uğurla çıxış edib. Taekvondo Federasiyasından verilən məlumata görə, 46 kiloqram çəki dərəcəsində çıxış edən idmançı fəxri kürsüyə qalxıb. M.Əkbərova G-2 kateqoriyalı turnirdə bürünc medal qazanıb.

# XXI əsrin rekordu

Misli Premyer Liqasının XXII turunda “Səbail”lə qarşılaşan “Qarabağ” ev oyununda 5:0 hesablı qələbə qazanıb. Peşəkar Futbol Liqasının məlumatına görə, 75 dəqiqəsi qolsuz bitən görüşdə bütün toplar hakimin final fitinə 15 dəqiqə qalandan sonraya təsadüf edib. Qurban Qurbanovun komandası bununla da Azərbaycan çempionatları tarixində XXI əsrin rekorduna imza atıb. “Qarabağ” 5 və ya daha çox qol vurduğu görüşdə hesabı ən gec açan komanda olub. Ağdam təmsilçisi ilk topu 76-cı dəqiqədə vursa da, matçın sonunadək “5”ə çatıb. Bunadək əsrin rekordu qolların sayı “Qəbələ”yə məxsus idi. “Qırmızı-qaralar” 2021/2022-ci illər mövsümündə “Səbail”lə qarşılaşmada 65-ci dəqiqədə hesabı açdıqdan sonra 5:0 hesabı ilə qalib gəliblər.




Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4565**
**Sifariş: 345**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova